

**Məqsədimiz, fəaliyyətimiz ehtiyaclı insanlara dəstəkdir!!**

Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı dünya ölkələrində mövcud olan humanitar şəbəkəsi vasitəsilə hər yerdə öz xeyirxah missiyasnı həyata keçirən və müxtəlif fəlakətlərdən zərər çəkmiş insanların üzləşdikləri çətinliklərin aradan qaldırılmasına xidmət edən qlobal bir təşkilatdır. Beynəlxalq Hərəkat əsasən silahlı münaqişələrin, təbii fəlakətlərin və digər humanitar böhranların təsirinə məruz qalan insanların çoxtərəfli ehtiyaclarına çevik və effektiv cavab verməy çalışır, davamlı şəkildə Fundamental Prinsiplərin yerlərdə tətbiq olunması üçün lazımi addımları atır, könüllü xidmət prinsipini əsas tutaraq yerli, milli, regional və beynəlxalq səviyyədə sistemli şəkildə fəaliyyət göstərir. Beynəlxalq Hərəkat öz hazırlığını və effektiv şəkildə xidmət göstərmək qabiliyyətini artırır, humanitar diplomatiya üsulunu tətbiq etməklə tərəfdaşları ilə əlaqələri gücləndirir, gəncləri könüllülüyə dəvət edir.

Hər bir Milli Cəmiyyət ilk növbədə öz ölkəsində Hərəkatın beynəlxalq komponentləri tərəfindən dəstəklənərək, özünün güclü könüllü şəbəkəsinə arxalanaraq, humanitar sahədə öz hökumətinə yardımçı rolunu nümayiş etdirir. Eyni zamanda gələcəyə doğru addım atan Milli Cəmiyyət dəyişən dünyaya uyğunlaşmağa hazır olmalı, öz şəffaflığını qorumalı və bununla da ən güclü, qabaqcıl humanitar təşkilatlardan birin çevrilməlidir.

Bizim üçün gəlirgətirmə, beynəlxalq əlaqələr, sağlamlıq qayğı, fövqəladə hallara cavabvermə, miqrasiya, gənclərlə iş sahələrinin inkişafı prioritet məsələlərdən biridir. Bu sahələrin fəaliyyətinin davamlı və daha da effektiv olması üçün cəmiyyətdə bu şöbənin kadr təminatına xüsusi diqqət verilib, Beynəlxalq Qızıl Xaç və BQX  və QAC Federasiyasının dəstəyi ilə təşkil olunan bütütn treyninq və seminarlarda Milli cəmiyyətin müvafiq sahəsində çalışan kadrlar yüksək səviyyədə iştirak etmişlərş ənənəvi tətəfdaşlarımız olan.

Fövqəladə Hallar, Səhiyyə, Təhsil Nazirlikləri, Dövlət Miqrasiya Xidməti, Beynəlxalq Miqrasiya Təşkilatı, ANAMA kimi qurumlarla bağlanmış əməkdaşlıq memorandumları Cəmiyyətin fəaliyyətində əsaslı rol oynamış, onun inkişafına əməli töfhələr vermişdir. Bu istiqamətdə həm dövlət strukturlar ilə, həm də ənənəvi tərəfdaşlarımız olan Beynəlxalq Federasiya və Beynəlxalq Qızıl Xaç  Komitəsi ilə işbirliyimiz paralel sürətdə davam etmişdir.Cəmiyyətimiz daim inkişafda, öz xeyirxah missiyasın şərəflə davam etdirməkdədir.

**HESABAT DÖVRÜNDƏ HƏYATA KEÇİRİLƏN ÜMUMİ FAƏLİYYƏT GÖSTƏRİCİLƏRİ**

**20110 nəfərə 394484 AzN məbləğində müxtəlif növ humanitar yardımlar edilmişdir.**

**Respublika üzrə müxtəlif təbii fəlakətlərdən əziyyət çəkən 19 ailəyə 17.700,10 AzN məbləğində humanitar yardım göstərilmişdir.**

**"Fövqəladə hallara hazırlıq və cavabvermə" mövzusu ilə bağlı 12600 nəfər insan maarifləndirilmişdir.**

**Səhiyyə maarifi və səhiyyə xidmətlərindən 6261 nəfər yararlanmışdır.**

**AzQAC-ın tarixi və fəaliyyət istiqamətləri, BHH və Fundamental Prinsiplərin yayımı sahəsində 215 nəfər maarifləndirilmişdir.**

**"İnsan Alverinə Qarşı Mübarizə" mövzusunda 44000 şagird və tələbə maarifləndirilmişdir.**

**433 nəfər miqranta müxtəlif humanitar yardımlar edilmişdir.**

**İanə qutularından 29452 AzN məbləğində pul vəsaiti toplanılıb.**

**480 nəfər könüllü olmaq üçün AzQAC-a üzv olmuşdur.**

**4478 nəfər uşaq və gənc AzQAC-ın həyata keçirdiyi fəaliyyətlərdən bəhrələnmişdir.**



## Regional Mərkəz və yerli bölmələrlə iş

| MƏQSƏD | | |
|---|---|---|
| **AzQAC-ın Komitələrinin, Regional Mərkəzlərinin, yerli bölmə və ilk təşkilatlarının maddi-texniki bazasının və kadr potensialının gücləndirilməsi, yerli səviyyədə səmərəli və özünü doğruldan humanitar fəaliyyətləri həyata keçirmək məqsədilə milli və beynəlxalq müstəvidə humanitar sahəyə töhfə vermək.** | | |
| | **FƏALİYYƏT** | **NƏTİCƏ** |
| **1.** | Rayon, şəhər və sahə bölmələri tərəfindən bir çox yardımların təşkil edilməsində iştirak edilmişdir. | Novruz bayramı, Dünya Azərbaycanlılarının həmrəylik günü, Ahıllar günü münasibətilə keçirilmiş bayramlarda bir çox rayon və şəhər bölmələrində keçirilmiş tədbirlərdə bayram sovqatlarının paylanılmışdır. |
| **2.** | Mart,aprel,iyun və iyul aylarında AzQAC-ın Baş qərargahına Azərbaycan Dillər,Qərb və Turizm Universitetlərindən istehsalat təcrübəsi keçmək üçün gələn tələbələrə seminarlar keçirilmişdir. | Seminarlarda ümumilikdə 50 nəfər tələbəyə Təşkilati inkişaf fəaliyyəti ilə əlaqədar məlumat verilmişdir. |
| **3.** | Mart və Avqust aylarında Sumqayıt və Bakı Regional Mərkəzlərində zona müşavirəsi keçirilmişdir. | Müşavirə koordinator, rayon və şəhər bölmə sədrlərinin iştirakı ilə keçirilmişdir.Onlara üzvlərin sayının artırılması, bölmələrə yardım üçün müraciət edən şəxslərin imkan daxilində cavablandırılması tövsiyə olunmuşdur. |
| **4.** | Hər rübün sonunda əsasən Bakı və Sumqayıt Regional Mərkəzlərində rübün yekununa dair görüşlər keçirilmişdir. | Keçirilən görüşlərdə sədrlərin gördükləri işlərdən danışılmış, mövcud problemlər dinlənilmiş və onlara müvafiq tapşırıqlar verilmişdir. |
| **5.** | Regional Mərkəz Koordinatorları ilə mütəmadi görüşlər keçirilmişdir. | Təşkilat idarəsi rüblər üzrə Regional Mərkəz Koordinatorları ilə mütəmadi görüşlər keçirmişdir. Bu görüşlərdə koordinatorların aydiyyəti bölmələrlə görüşü, həmin bölmələrdə olan problemlər, İcra Hakimiyyəti orqanları ilə münasibətləri barədə danışılmışdır. Həmçinin onlara gündəlik təşkilati məsələləri diqqət mərkəzində saxlamaq bildirilmişdir. |
| **6.** | Yerli bölmələrin maddi-texniki bazasının gücləndirilməsi, həmçinin üzvlük haqqının yığılması və ofis yerinin ayrılması barədə yerli İcra Hakimiyyəti orqanına 50-dən artıq müvafiq məktub | Edilən müraciətlər əsasında İcra Hakimiyyəti başçısının müvafiq göstərişi ilə yerli bölmələrə üzvlük haqqının yığılmasına və ofis yerinin ayrılmasına köməklik göstərilmişdir. |

| | | |
|---|---|---|
| | və müraciətlər göndərilmişdir. | |
| **7.** | AzQAC-ın Baş Qərargahına yerli bölmələr tərəfindən rüblər üzrə köçürülən maliyyə planının təmin olunması təşkil edilmişdir. | Rayon bölmələri tərəfindən köçürülən maliyyə planlarına nəzarət edilmiş və vaxtında köçürülməsi təmin edilmişdir. |
| **8.** | Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən yönləndirilən 10-dan çox məktuba baxılmış və rayon, şəhər bölmələri ilə əlaqəli görüləcək işlərdə köməklik göstərilmişdir. | Beynəlxalq Qızıl Xaç Komitəsinə cəzaçəkmə müəssisələrindəki şəxsin ailə üzvləri tərəfindən ünvanlanmış məktub şöbəyə yönləndirilmişdir. Təşkilat idarəsi rayon bölmə sədrlərinə bu barədə müəyyən tapşırıqlar vermiş, məsələ sədrlər tərəfindən araşdırılmış və lazımi tədbirlər görülmüşdür. |



## Fövqəladə Hallara Hazırlıq və Cavabvermə

| **MƏQSƏD** | | |
|---|---|---|
| ***Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədilə, AzQAC-ın imkanlarını səfərbər edərək, insan həyatını xilas etmək, böhran və fəlakətlərdən sonra aparılan bərpa işlərində iştirak etmək.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Respublika daxilində müxtəlif (zəlzələ, yanğın, sel-suların daşması və s.) fəlakətlərdən zərər çəkən insanlara ənənəvi qaydada humanitar yardımların göstərilməsi. | 2017-ci il ərzində AzQAC-ın FHHC şöbəsi tərəfindən müxtəlif təbii fəlakətlərdən Lerik, İsmayıllı, Goranboy, Cəlilabad, İmişli, Neftçala, Cəbrayıl rayonlarına, Bakı şəhəri üzrə Suraxanı rayonu və Xırdalan şəhərində ümumilikdə zərər çəkmiş 111 nəfərdən ibarət 19 ailəyə ümumi **17.700,10** AZN məbləğində məişət ləvazimatlarından və çadırlardan ibarət humanitar yardım göstərilmişdir |

| | | |
|---|---|---|
| **2.** | Milli Cəmiyyətin 2016-2020-ci illər üçün Strateji Planına uyğun olaraq müvafiq şöbələrin və beynəlxalq tərəfdaş təşkilatların iştirakı ilə AzQAC-ın Bakı şəhərində yerləşən Mərkəzi anbarına Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədi ilə zəruri malların alınması və yerləşdirilməsi təmin olunmuşdur. | **1.** 2017-ci il mart ayında AzQAC-ın Bakı şəhərində yerləşən Mərkəzi anbarına Türkiyə Kızıl Ay tərəfindən Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədi ilə ümumi dəyəri **201.601,40** AzN məbləğində olan 1680 ədəd yataq kisəsi, 1500 ədəd adyal, 432 dəst mətbəx dəsti, 150 ədəd yataq süngəri, 26 ədəd çadır dəsti təmənnasız olaraq verilmişdir.<br>**2.** 2017-ci il aprel ayında AzQAC-ın Bakı şəhərində yerləşən İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyəti tərəfindən Fövqəladə hallara hazırlıq və cavabvermə məqsədi ilə ümumi dəyəri **39.270** AzN olan 100 ədəd qaşıq, çəngəl, bıçaq, 100 ədəd ilk yardım çantası, 100 ədəd əlcək, 100 ədəd bel çantası, 30 cüt qadın ayaqqabısı, 70 cüt kişi ayaqqabısı, 100 ədəd yataq kisəsi və 100 ədəd uniforma təmənnasız olaraq verilmişdir |
| **3.** | Avstriya Qızıl Xaç Cəmiyyətinin və Avstriya İnkişaf Agentliyinin dəstəyi ilə həyata keçirilən "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsinin ikinci mərhələsi çərçivəsində Qusar və İsmayıllı rayonlarının öncədən seçilmiş icmalarında işin aparılması. | 2017-ci il ərzində İsmayıllı rayonunun Təzəkənd, Kürdmaşı, Diyallı, Tircan, Yuxarı Zərnava və Sumağallı, həmçinin Qusar rayonunun Kuzun və Əniq kəndlərində İmkanlığın və imkansızlığın qiymətləndirilməsi, ilk yardım, evlərdə təhlükəsizlik, icmalarda liderlik, ilk yardım, axtarış və xilasetmə simulyasiyaları və s. mövzularda **12.600** nəfərə **31** təlim və praktiki məşğələ keçirilmişdir. Bundan əlavə İlk Yardım günü, Gənclər günü, Beynəlxalq Könüllülər günü və QİÇS-lə mübarizə günü ilə əlaqədar İsmayıllı və Qusar rayonlarında maarifləndirici tədbirlər keçirilmişdir. Tədbirlərdə iştirak edənlərin ümumi sayı **815** nəfər olmuşdur. Digər layihə ilə bağlı **16** yerli və beynəlxalq görüş keçirilmişdir. Həmçinin İsmayıllı rayonunun Zərnava, Sumağallı və Qusar rayonunun Əniq və Kuzun kəndlərində kiçik bərpaedici layihələr həyata keçirilmişdir. |



## Sağlamlıq və qayğı

<table>
<tr><th colspan="3">MƏQSƏD</th></tr>
<tr><td colspan="3">Səhiyyə maarifi və səhiyyə xidmətləri vasitəsilə insanların sağlam və təhlükəsiz həyat yaşaması naminə bilik və bacarıqlarını artırmaq.</td></tr>
<tr><th colspan="2">FƏALİYYƏT</th><th>NƏTİCƏ</th></tr>
<tr><td>1.</td><td>27-28 yanvar tarixlərində AzQAC-ın əməkdaşları Şərqi Avropa və Mərkəzi Asiya regionu üzrə “Vərəmlə mübarizə” (TB-REP) layihəsi çərçivəsində “Sağlamlığa Xidmət” İctimai Birliyi və “YES Event Management” MMC təşkilatları tərəfindən “Vərəmlə mübarizədə ictimai vəkillik” mövzusunda təşkil olunmuş təlimdə iştirak etmişlər.</td><td>Təlimdə ““Milli Vəkillik Strateji Planı”nın ilkin forması hazırlanmış, dövlət və qeyri-dövlət orqanları ilə vərəmli xəstələrə vəkilliketmə üsulları öyrənilmişdir. Təlim əsasında 28 nəfər maarifləndirilmişdir.</td></tr>
<tr><td>2.</td><td>1 fevral tarixində AzQAC-ın təşəbbüsü ilə Respublika Xəstəxanasının doğum şöbəsində hamilə qadınlar və analar üçün “Ana və uşaqların sağlamlığı”na dair görüş təşkil olunmuş və mövzu ilə bağlı iştirakçıların sualları cavablandırılmışdır.</td><td>Təşkil olunan görüşdən 27 nəfər faydalanmışdır.</td></tr>
<tr><td>3.</td><td>28 fevral tarixində AzQAC-ın “İcmaya əsaslanan sağlamlıq” proqramı çərçivəsində 2 saylı Baza Tibb Kollecində tibb bacısı ixtisası üzrə təhsil alan tələbələr arasında seminar təşkil edilmişdir. Seminar zamanı iştirakçılara ölkədə AzQAC tərəfindən həyata keçirilən sağlamlıq üzrə fəaliyyət istiqamətləri, dövlət qurumları ilə əməkdaşlıq və əldə olunan nəticələrə dair geniş məlumatlar təqdim edilmişdir.</td><td>Seminarda 117 nəfər iştirak etmiş, nəticədə bir neçə tələbə AzQAC-da könüllü üzv olmaq arzusunu bildirmişdir.</td></tr>
<tr><td>4.</td><td>23-24 mart tarixlərində Azərbaycanda Vərəmlə Mübarizə üzrə QHT Koalisiyasına üzv olan AzQAC-ın iştirakı ilə “ 24 Mart Dünya Vərəm Günü” qeyd edilmişdir.</td><td>Bu gün münasibətilə Yasamal rayonunda Rabitə Kollecinin yataqxanalarında məskunlaşan icma nümayəndələri və 47 saylı orta məktəbdə Füzuli rayonunun sakinləri ilə iştirakçıların ümumi sayı 48 nəfər olan görüşlər təşkil edilmişdir.</td></tr>
<tr><td>5.</td><td>10 aprel tarixində AzQAC-ın əməkdaşları TB-REP (Şərqi Avropa və Mərkəzi Asiya Regionu üzrə Vərəm proqramı) layihəsi çərçivəsində “Azərbaycanda pasiyent-yönümlü vərəmin müalicəsinə keçid nəailiyyətlər və çətinliklər” adlı konfransda iştirak etmişlər.</td><td>İştirakçıların ümumi sayı 25 olan konfransda layihə çərçivəsində məlumatlar yenilənmişdir.</td></tr>
</table>

| | | |
|---|---|---|
| **6.** | 14.04.2017-ci il tarixində AzQAC Sumqayıt şəhər bölməsi və Sumqayıt Dövlət Universitetinin birgə təşkilatçılığı, Mərkəzi Qan Bankının dəstəyi ilə "Qan ver, yaşat" devizi altında, ənənəvi olaraq talassemiya və hemofiliyadan əziyyət çəkən insanlara kömək məqsədi ilə qanvermə aksiyası keçirilmişdir | 517 nəfər müəllim, tələbə və könüllülərin qatıldığı aksiyada yığılan qan Səhiyyə Nazirliyinin Hematologiya və Transfiziologiya İnstitutunun Qan Bankına təqdim olunmuşdur. |
| **7.** | 16 aprel tarixində AzQAC Azərbaycan Uşaq və Gənclərin "Sülh" Şəbəkəsinin üzvləri üçün dünyada və Azərbaycanda sağlamlıqla bağlı aparılan tədbirlər haqqında seminar keçirilmişdir. | Seminar əsasında 34 nəfər məlumatlandırılmışdır. |
| **8.** | 09.05.2017 tarixində - "8 May Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatı Günü" ilə əlaqədar "Hər yerdə, hərkəs üçün" şüarı altında Əfqanıstan, Suriya, Pakistan və Ukrayna ölkələrindən Azərbaycanda məskunlaşan 15 nəfər miqrant ailəsi üzvlərinə humanitar aksiya – tibbi baxış və müayinələr təşkil edilmişdir. Tibbi müayinələr Bakıda fəaliyyət göstərən İran Qızıl Aypara Cəmiyyətinin Klinikasında təşkil edilmişdir. | Həyata keçirilən humaniatar aksiyadan 23 nəfər yararlanmışdır. |
| **9.** | 12 may tarixində - 2 saylı Bakı Baza Tibb Kollecinin akt zalında "Beynəlxalq Tibb bacısı" gününə həsr olunmuş tədbir keçirilmişdir. AzQAC tərəfindən "Tibb bacısının ixtisasının yaranması, təşkili və inkişafı və Qızıl Xaç/Qızıl Aypara Hərəkatında rolu" mövzusunda mühazirə oxunmuşdur. | Tədbir nəticəsində 157 nəfər maarifləndirilmişdir. |
| **10.** | 8 iyun tarixində - AzQAC Qəbələ Rayon bölməsinin və rayonda yerləşən 5 saylı tam orta məktəbin müdriyyətinin birgə təşkilatçılığı və dəstəyi ilə məktəbin şagird və müəllimlərinə "Sağlam həyat tərzi və buna doğru atılan addımların vacibliyi" mövzusunda təbliğatyönümlü tədbir keçirilmişdir. | Tədbir nəticəsində 58 nəfər maarifləndirilmişdir. |
| **11.** | 13 iyul tarixində - AzQAC-ın Miqrasiya şöbəsinin fəaliyyəti çərçivəsində azərbaycan dili kurslarına cəlb olunan miqrant ailələrinə sağlam həyat tərzinə dair seminar keçirilmişdir. | İştirakçılarının ümumi sayı 24 nəfər təşkil edən seminar çox faydalı olduğuna görə miqrant ailələri üçün sağlamlıqla bağlı digər mövzulara həsr edilən seminarların da keçirilməsi nəzərdə tutulur. |
| **12.** | 25 iyul tarixində - AzQAC və "SOS – Uşaq Kəndləri" arasında olan əməkdaşlıq təcrübəsini nəzərə alaraq tərbiyə müəssisəsində olan uşaqların anaları üçün "Uşaq sağlamlığı" mövzusunda seminar təşkil olunmuşdur.. | 42 nəfər seminar iştirakçısına mövzu ətrafında lazımı biliklər təqdim edilmiş və əyani vəsaitlər paylanılmışdır. |
| **13.** | 27-28 iyul tarixlərində "Ümumdünya Hepatit Günü"nə həsr edilən və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi, Sabunçu Rayon İcra Hakimiyyətinin Humanitar şöbəsi, Sabunçu Rayon Gənclər və İdman İdarəsi ilə birlikdə "Hepatiti aradan qaldırmaq üçün Mən…." mövzusunda tədbir keçirilmişdir. Tədbir Sabunçu rayonunda yerləşən 1 saylı mərkəzləşdirilmiş kitabxanada baş | Tədbir nəticəsində 98 nəfər maarifləndirilmişdir. |

| | | |
|---|---|---|
| | tutmuş və tədbirə rayon üzrə yerli təşkilatlar, təhsil müəssisələrindən olan nümayəndələr, gənclər dəvət olunmuşdular. | |
| **14.** | 11 avqust tarixində Ümumdünya Səhiyyə Təşkilatının tövsiyyəsinə görə ölkələrdə hər il "1-7 avqust Ümumdünya ana südü ilə qidalanma həftəsi"nə həsr edilən geniş kompaniyalar keçirilmişdir. Bununla bağlı AzQAC Pirallahı rayonunda yerləşən 10 saylı Birləşmiş Xəstəxanasında hamilə qadınlar və analara "Ana südü ilə qidalanmanın sağlamlığa faydası" adlı seminar təşkil etmişdir. | Seminar nəticəsində 27 nəfər maarifləndirilmişdir. |
| **15.** | 16.10.2017-ci il tarixində Respublika Qan Bankında qan vermə aksiyası keçirilmişdir. | Aksiya nəticəsində 45 nəfər iştirakçıdan 11 nəfəri qan vermişdir. |
| **16.** | 29.11-04.12.2017-ci il tarixlərində "1 dekabr Ümumdünya QİÇS-lə Mübarizə Günü" münasibətilə Respublika QİÇS-lə Mübarizə Mərkəzi ilə birgə "Təhlükəsiz və möhkəm icmaların qurulması" layihəsi çərçivəsində Qusar rayonunun peşə litseyində; Sumqayıt Dövlət Universitetində; Tələbə Gənclər Təşkilatının yüksək təşkilatçılığı ilə Memarlıq və İnşaat Universitetində; AzQAC-ın Ağdaş Rayon bölməsinin əməkdaşları tərəfindən M.İsayev adına orta məktəbdə tədbirlər keçirilmişdir. | İştirakçıların ümumi sayı 541 nəfərdən artıq olan tədbirlərdə Respublika QİÇS mərkəzinin mütəxəssisi tərəfindən maarifləndirici mühazirə oxunmuş, İİV müayinəsindən keçirmək üçün 139 nəfər müəllim və məktəblidən qan analizi götürülmüşdür. |
| **17.** | 06.12.2017-ci il tarixində "1 Dekabr Ümumdünya QİÇŞ-lə mübarizə Günü" münasibətilə miqrant ailələri arasında "QİÇS. Yoluxma və qorunma yolları, mübarizə və profilaktik tədbirlərin həyata keçirilməsi" mövzusunda seminar keçirilmişdir. | Seminar nəticəsində 23 nəfər maarifləndirilmişdir. |
| **18.** | 25.12.2017-ci il tarixində "İnsan sağlamlığının qorunması" və "İşdə psixi sağlamlığın qorunması" mövzularında Azərbaycan Sosial iş İctimai Birliyinin üzvləri (BDU, Azərbaycan İncəsənət Universitetlərin tələbələri) arasında seminar keçirilmişdir. | Seminar nəticəsində 13 nəfər maarifləndirilmişdir. |



## İlk Yardım

| MƏQSƏD | | |
|---|---|---|
| *Əhalinin (icmaların) İlk Yardım (İY) üzrə bilik və bacarıqlarını artırmaq.* | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində Etika Akademiyasının, BMT-nin Bakı ofsinin, “Pulman” və “Hilton” mehmanxanalarının əməkdaşları və “Generpull Reseach and Development” Uşaq Tədris Mərkəzinin müəllim heyəti üçün pullu təlimlər keçirilmişdir. | Təlimlər nəticəsində 97 nəfər əhatə olunmuşdur. |
| **2.** | 06-10.02.2017- ci il tarixlərində Bərdə rayonunda Çevik Mobil Könüllü dəstələr üçün təlim təşkil edilmişdir. | 26 nəfər üzv əhatə olunmuşdur. |
| **3.** | 20-24 fevral tarixlərində Fövqəladə Hallar Nazirliyinin xilasedicilər heyətinə BQXK-nin əməkdaşları ilə birlikdə təlim-məşğələ keçirilmişdir. | 10 nəfər üzv əhatə olunmuşdur. |
| **4.** | 12-18.03.2017- BQXK-si ilə birlikdə AzQAC-ın Qazax, Ağstafa, Ağcabədi, Füzuli, Goranboy, Tərtər, Ağdam rayon bölmələrinin təlimatçı könüllüləri üçün təlim keçirilmişdir. | 15 nəfər könüllü təlimatlandırılmışdır. |
| **5.** | Aprel və Avqust aylarında BQXK-si ilə birlikdə Goranboy, Tərtər , Ağdam və Füzuli rayonlarının 13 kəndində icmalar arasında təlimlər təşkil edilmişdir. | Təlimlər nəticəsində 276 nəfər maarifləndirilmişdir. |
| **6.** | Aprel-İyun ayları ərzində “Təhlükəsiz və möhkəm icmaların qurulması” layihəsi çərçivəsində Qusarın Kuzun və Əniq, İsmayıllının Kürdmaşı, Sumağallı, Tazakənd, Zərnava, Diyallı və Tircankənd orta məktəblərində İlk yardım təlimləri keçirilmişdir. | Təlimlər nəticəsində 1373 nəfər maarifləndirilmişdir. |
| **7.** | 26.05.2017, 30-31.05.2017-ci il tarixlərində “Təhlükəsiz və möhkəm icmaların qurulması” layihəsi çərçivəsində İsmayıllının Təzəkənd, Zərnava, Tircan kənd orta məktəblərində həyata keçirilmiş simulyasiya | Məşğələlər nəticəsində 602 nəfər əhatə olunmuşdur. |

| | | |
|---|---|---|
| | məşğələlərində İY üzrə mövzular əsasında (yaralar, sınıqlar, qanaxmalar, yanıqlar, hüşsuz vəziyyətdə olan şəxsə yardım və s.) təcrübi üsullar nümayiş olunmuşdur. | |
| **8.** | 01-03.08.2017-ci il tarixlərində AzQAC-ın Qusar RB-də Qusarın və İsmayıllının kənd icmalarının üzvləri, əməkdaş təşkilatların və əhalinin iştirakı ilə maarifləndirmə və İY vərdişlərinin yiyələnməsi məqsədilə tədbir keçirilmişdir. | İştirakçı sayı 75 nəfər olan tədbirdə nümayişlər və könüllü dəstələrin yarışı keçirilmişdir. |
| **9.** | 05-10.09.2017-ci il tarixlərində BQXK-si ilə birlikdə Şəmkirdə AzQAC könüllüləri və Azərbaycan Skaut Cəmiyyətinin üzvləri üçün İlk yardım təlimləri təşkil olunmuşdur. | Keçirilən təlimlərdə 25 nəfər maarifləndirilmişdir. |
| **10.** | 14 sentyabr tarixində Təhlükəsiz və Möhkəm icmaların qurulması layihəsi çərçivəsində "Ümumdünya İlk Yardım Günü" təşkil edilmişdir. Bu münasibətlə məktəblərarası İlk Yardım yarışları və əhali arasında viktorinalar keçirilmişdir. | Həyata keçirilən tədbirdə 134 nəfər əhatə olunmuşdur. |
| **11.** | 21-24.11.2017-ci il tarixlərində BQXK-si ilə birlikdə Qazax və Tovuz rayonlarının 2 kəndində icmalar arasında İlk yardım təlimləri keçirilmişdir. | Təlimlərdən 48 nəfər yararlanmışdır. |
| **12.** | 27-29.11.2017-ci il tarixlərində BMT-nin Qaçqınlar Mərkəzində miqrant ailələri arasında məşğələlər keçirilmişdir. | Məşğələlərdən 28 nəfər yararlanmışdır. |

## Psixososial dəstək

| **MƏQSƏD** | | |
|---|---|---|
| ***Əhalinin (icmaların) İlk Psixososial dəstək üzrə bilik və bacarıqlarını artırmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | 9 yanvar tarixində Azərbaycan Dövlət İqtisad universitetinin müəllim və tələbələrinə "İmtahanqabağı stress, stress, depressiya və intihar" mövzularında mühazirələr oxunmuşdur. | Mühazirələr zamanı 28 nəfər maarifləndirilib. |
| **2.** | 25.01.2017-25.03.2017 tarixləri ərzində BQXK-nın maliyyə və texniki dəstəyi ilə cəbhəyanı rayonların (Tovuz və Göranboy) icmalarında fəaliyyət göstərən könüllülərə "Yardım göstərənə Yardım" adlı təlim keçirilmişdir. | Təlim nəticəsində 18 nəfər könüllü özünü stress vəziyyətlərində idarə etmək bacarıqlarına yiyələnmişdir. |
| **3.** | 11.02.2017-ci il tarixində Bərdə rayonunda Çevik Mobil | Nəticədə 26 nəfər mobil dəstə üzvü fövqəladə |

| | | |
|---|---|---|
| | Könüllü dəstələr üçün İlk Psixoloji Yardım üzrə təlim təşkil olunmuşdur. | hallar zamanı zərərçəkənlərə İlk Psixoloji yardımın göstərilməsi üzrə biliklər əldə etmişdir. |
| **4.** | 07.03.2017-22.04.2017-ci il tarixlərində Xəzər, Qərb və Azərbaycan Dillər Universitetlərindən AzQAC-ın Baş Qərargahına istehsalat təcrübəsinə gələn tələbələrə “Stress və Depressiya, Liderlik psixologiyası, Bilincsiz ve Bilincli reaksiyalar, Psixikanın müdafiə mexanizmləri, Psixoanalizə giriş, Sosial çevrənin təsirləri” mövzuları üzrə seminarlar təşkil edilmişdir. | Seminarlar zamanı 34 nəfər tələbə onlar üçün aktual olan mövzular üzrə maarifləndirilmişdir. |
| **5.** | 07-08.04.2017- Ümumdünya Sağlamlıq Günü ilə bağlı “Depressiya. Gəl danışaq” şüarı altında UNCHR “Qadın və gənclər” Mərkəzində miqrantlar və Sabunçu Rayonunda yerləşən “Asudə Vaxt” Mərkəzində Tibb kurslarının oxucuları arasında maarifləndirici tədbirlər təşkil edilmişdir. | İştirakçıların ümumi sayı 52 nəfər olan tədbirlər nəticəsində mövzuya uyğun olaraq gələcəkdə psixoloq mütəxəssis tərəfindən psixoloji məsləhətlərin təşkil olunması məsələsi qeyd edilmişdir. |
| **6.** | 08.05.2017-09.05.2017-ci il tarixlərində miqrant ailələri ilə görüşlər keçirilmişdir. “Stress və depressiya, post-travmatik sindrom, onlardan irəli gələn fəsadlar” mövzuları üzərində müzakirələr aparılmışdır. | İştirakçıların ümumi sayı 24 nəfər olan görüşün sonunda bir sıra miqrant fərdi məsləhət almaq üçün müraciət etmişdir. |
| **7.** | 24.04-23.09.2017-ci il tarixləri ərzində keçmiş Qorkiy adına Kitabxanada, Azərbaycan Dövlət konservatoriyasında, Azərbaycan, Dillər, Slavyan, Pedaqoji universitetlərində, Milli Aviasiya Akademıyasında tələbə və müəllim heyəti arasında “Stress və Depressiya”, “Stress, depressiya və intihar”, “Psixikanin mudafiə reaksiyaları”, “Şübhə mexanizmlərinin psixikaya təsiri” mövzularında seminarlar keçirilmişdir. | Mühazirələr zamanı 667 nəfər tələbə və müəllim maarifləndirilmişdir. |
| **8.** | 23 sentyabr tarixində Sumqayıt şəhərində yerləşmiş Reduco Tədris Mərkəzinin Bakı ofisində mərkəzin heyəti üçün "Uğurlu karyera və maneələr" mövzusunda təlim təşkil olunmuşdur. | Tədris Mərkəzinin müraciəti əsasında təşkil olunmuş və 34 nəfərin iştirak etdiyi görüş nəticəsində iştirakçılar mövzuya uyğun bilik və bacarıqlar əldə etmişlər. |
| **9.** | 25.06-09.10.2017ci il müddəti ərzində Yarat təşkilatında, Caspian Plaza/“Human Capital Consulting”-da, Kibrit Book cafesində, Siyasi Psixologiya Mərkəzində, ASAN xidməti nəzdində Gənclər təşkilatında“Sosial çevrənin psixikaya təsiri; Mikelancelo və zaman; Sofokldan Şekspirə; Şah Edipdən Hamletə; Şübhənin psixikaya təsir mexanizmi; Sosial Çevrənin Təsirləri; Seksual Norma və Patalogiya; Sosial həyatın dinamikasının şəxsi həyatdakı təhazürlərinin təhlili; Seksual problemlərin gizli tərəflərinin psixoanalitik təhlili və kliniki analizi; Seksual norma və patalogiyaların çərçivələri; Leonardo da Vinçi və Mikelancelo Buonarroti: iki nəhəng sənətkarın tamamlanmamış mübarizəsinə psixoanalitik baxış", Şüuraltı və şüursuz reaksiyaların fərqləndirilmə mexanizmləri" mövzularında açıq mühazirələr təşkil edilmişdir. | Mühazirələrdə ümumilikdə 425 nəfər iştirak etmiş və onları maraqlandıran suallar cavablandırılmışdır. |

| | | |
|---|---|---|
| **10.** | 10.10.-11.10.2017-ci il tarixlərində “Ümumdünya Psixi Sağlamlıq Günü” ilə bağlı AzQAC Sabunçu RB ilə birgə həkim-pediatrlarla və Sabunçu rayonunda fəaliyyət göstərən sosial xidmətçilərlə maarifləndirici seminarlar, 1 nömrəli Respublika Psixiatriya xəstəxanasında isə pasientlər və işçilərlə görüşlər təşkil edilmişdir. | Keçirilən tədbirlərdə 78 nəfər məlumatlandırılmışdır. |
| **11.** | 31.10.2017-28.11.2017-ci il tarixlərində Azərbaycan Mədəniyyət və İncəsənət, Pedaqoji, Dillər universitetlərinin, Tibb kollecinin tələbə və müəllim heyəti üçün “Mikelancelo və zaman; Renesans dövründə ortaya çıxan humanizmin təhlili; Şüursuz və Şüuraltı reaksiyaların təhlili (Stimulyasiyon və motivasiyon paralellərin təhlili); Hamlet obrazı üzərində şübhə mexanizmlərinin öyrənilməsi; Stress, depressiya və intiharlar; Psixoanalizə giriş” mövzuları üzrə mühazirələr oxunmuşdur. | Mühazirələr nəticəsində 421 iştirakçı maarifləndirilmiş və onları narahat edən suallar cavablandırılmışdır. |
| **12.** | 16-22.12.2017-ci il tarixlərində Gənclər Evində "Vətənpərvərlik psixologiyası" proqramı çərçivəsində Azərbaycan Dövlət Neft və Sənaye universitetində (ADNSU) “Gənclərin Psixologiyası; Bilincsiz və Bilincaltı reaksiyalar; Bilincaltına gedən yollar” mövzularında seminarlar təşkil olunmuşdur. | Seminarlar zamanı 147 gənc maarifləndirilmiş və onları narahat edən suallar cavablandırılmışdır. |
| **13.** | Ağır Vərəmli xəstələrin müalicəsində və onlara qayğı göstərən ailə üzvləri, tibb bacılarına psixo-sosial dəstəyin rolunu nəzərə alaraq il ərzində bir neçə dəfə tibb müəssisələrinə və ya xəstələrin yaşayış yerlərinə baş çəkilmişdir. | Nəticədə 33 nəfər vərəmli xəstəyə və onların ailə üzvlərinə, tibb baçılarına psixososial dəstək göstərilmişdir. |



## Beynəlxalq Əlaqələr

| MƏQSƏD | | |
|---|---|---|
| ***1. Digər ölkələrin Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri, Beynəlxalq Qızıl Xaç Komitəsi (BQXK), Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyası (BQXQACF və ya Beynəlxalq Federasiya) və müvafiq beynəlxalq təşkilatlarla mövcud əməkdaşlığın möhkəmləndirilməsi və əməkdaşlıq perspektivlərinin gücləndirilməsi, eləcə də humanitar fəaliyyətlərin həyata keçirilməsində yeni tərəfdaşlıq münasibətlərinin quruaraq əməkdaşlıq sərhədlərinin genişləndirilməsi<br>2. Milli Cəmiyyətin nümayəndələrinin Hərəkat-daxili və hərəkatdan kənar təşkil olunan müvafiq konfrans, tədbir, görüş, bilik və bacarıqların artırılmasına yönələn treyninq və seminarlarda iştiraklarının, eyni zamanda xarici qonaqların və mütəxəssislərin Azərbaycan QAC-a rəsmi səfərlərinin təşkilinin təmin olunamsı.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | İl ərzində AzQAC-ın prezidenti Novruz Aslanov ilə BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin rəhbəri Elena Ajmone Sessera arasında rəsmi görüşlər keçirilmişdir. | Hər iki qurum arasında mövcud olan əməkdaşlıq üzrə həyata keçirilən fəaliyyətlər müzakirə edilmiş, gələcək əməkdaşlıq planları müəyyənləşdirilmiş və yeni layihələr barədə geniş fikir mübadilələri aparılmışdır |
| **2.** | AzQAC ilə BQXK-nın Azərbaycandakı Nümayəndəliyi arasında əməkdaşlıq imkanları genişləndirilmişdir. | BQXK-nın Azərbaycandakı Nümayəndəliyinin dəstəyilə AzQAC-ın Baş Qərargahı səviyyəsində yeni Fövqəladə Mobil Könüllü Dəstələri yaradılmışdır |
| **3.** | AzQAC ilə Türkiyə QAC arasındakı mövcud əməkdaşlıq imkanları genişləndirilmişdir. | Türkiyə QAC tərəfindən Azərbaycan QAC-a texniki humanitar yardım (çadrlar, mətbəxt dəstləri) göstərilmişdir. Bundan başqa Türkiyə QAC-ın maliyyə dəstəyilə Qazax rayonunun Abbasbəyli kəndində "İlk Tibbi Yardım Məntəqəsi" tikilmişdir. Tibb məntəqənin 11 oktyabr tarixində keçirilən rəsmi açılış |

| | | |
|---|---|---|
| | | mərasimində Türkiyənin Azərbaycandakı baş konsulu cənab Orhan İşıq da iştirak etmişdir. |
| **4.** | Azərbaycan QAC ilə İran QAC arasındakı mövcud əməkdaşlıq imkanları genişləndirilmişdir. | İran QAC Azərbaycan QAC-a texniki humanitar yardım göstərmiş, 100 ədəd ilk yardım çantası və 100 ədəd forma hədiyyə etmişdir. |
| **5.** | AzQAC-ın İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran BQXK və BQX/QACF tərəfindən "Gəlirgətirmə və Fondların Artırılması" üçün Hərəkatın Prinsipləri üzrə yaradılmış işçi qrupunun görüşlərində iştirak etmişdir. | Milli Cəmiyyətin nümayəndəsi mütəxəssis kimi işçi qrupunun fəaliyyətinə öz töhfəsini vermişdir. |
| **6.** | 28 mart tarixində BQXK-nın Azərbaycan Nümayəndəliyi ilə birlikdə Milli Cəmiyyətin işçi heyəti üçün "Cəsədlərlə İş" mövzusunda seminar təşkil edilmişdir. | Milli Cəmiyyətin işçi heyəti qeyd olunan mövzuda BQXK-nın və digər Milli QX/QA Cəmiyyətlərinin gördüyü işlər barədə məlumat almış və yeni biliklər əldə etmişlər. |
| **7.** | 31 mart tarixində AzQAC-ın Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nailə Ömərova ilə BQXK-nın Azərbaycan Nümayəndəliyinin Əməkdaşlıq üzrə məsul şəxsi Regina Szwadzka və Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin Beynəlxalq Əlaqələr şöbəsinin əməkdaşları arasında görüş keçirilmişdir | Görüş zamanı Milli Cəmiyyətin fövqəladə hallar zamanı gördüyü işlər və BQXK-nın Azərbaycan Nümayəndəliyi ilə birlikdə cəbhəyanı ərazilərdə yaratdığı Mobil Könüllü Dəstələr haqqında geniş məlumat verilmişdir. |
| **8.** | 5-7 aprel tarixində AzQAC-ın İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran Beynəlxalq Federasiyanın Avropa Zona Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində təşkil olunan "Miqrantların Regional Müdafiəsi, Gender məsələsi və cəmiyyətə daxil olması" mövzusundakı təlimdə iştirak etmişdir. | AzQAC-ın nümayəndəsi Milli Cəmiyyətin qeyd olunan sahədə gördüyü işlər barədə geniş məlumat vermiş, eyni zamanda təcrübi məşğələlərdə iştirak edərək öz yüksək bilik və bacarığını nümayiş etdirmişdir. |
| **9.** | 10 aprel tarixində Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin direktor müavini Elxan Rəhimov və Təbii Fəlakətlərə dair nümayəndəsi Nebosja Medoşeviç Azərbaycan QAC-a rəsmi səfər etmişdir. | Səfər zamanı Beynəlxalq Federasiyanın nümayəndələri AzQAC-ın Prezidenti Novruz Aslanov və Milli Cəmiyyətin fövqəlada hallar üzrə məsul şəxsləri ilə görüşlər keçirərək, fövqəladə hallara hazırlıq sahəsində fikir mübadiləsi aparmışlar. Eyni zamanda iki qurum arasında əməkdaşlığın möhkəmləndirilməsi, region səviyyəsində Regional Fövqəladə Hallara Hazırlıq Komandalarının bərpa olunması və Davamlılıq Planlarının hazırlanması məsələləri də müzakirə edilmişdir. |
| **10.** | 17-19 aprel tarixlərində AzQAC-ın əməkdaşları Nailə Ömərova və Nigar Rüstəmzadə BQXK-nın Azərbaycan Nümayəndəliyi və ADA Universiteti tərəfindən Beynəlxalq Humanitar Hüquq (BHH) mövzusunda təşkil olunan seminarlarda iştirak etmişlər. | AzQAC-ın əməkdaşları BHH sahəsində olan biliklərini daha da artırmışlar. |
| **11.** | 24-26 aprel tarixində AzQAC-ın İcraçı Katibi Ceyhun Mirzəyev Yaponiya QXC tərəfindən Yaponiyanın Nagasaki şəhərində keçirilən Nüvə Silahlarına dair Hərəkatın Yüksək Səviyyəli Konfransında iştirak etmişdir. | Konfransda BQXK, Beynəlxalq Federasiya və 35 Milli QX/QA Cəmiyyəti rəhbərlərinin və mütəxəssislərinin təşəbbüsü ilə "Nüvə silahlarının istifadə olunmaması, qadağan edilməsi və aradan qaldırılması üçün "Naqasaki Fəaliyyət Planı" hazırlanmışdır. |
| **12.** | 14-20 may tarixlərində Milli Cəmiyyətin İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran Azərbaycanın | Milli Cəmiyyətin nümayəndəsi təbii fəlakətlərdə həyata keçirilən əməliyyatlar zamanı |

| | | |
|---|---|---|
| | Fövqəladə Hallar Nazirliyinin əməkdaşları ilə birlikdə Mülki Müdafiə Təlim Proqramı və Şərq Tərəfdaş Ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının Alınması, Hazırlıq və Cavab Tədbirləri üzrə Şərq Proqramı çərçivəsində (PPRD East) Finlandiyanın Kuopiyo şəhərində təşkil olunan Mütərəqqi Təlim Kursunda iştirak etmişdir. | danışıqların aparılması, beynəlxalq əməliyyatların ölkə səviyyəsində idarə olunması, məlumatın idarəedilməsi və istiqamətləndirilməsi, müxtəlif tərəfdaşlarla və kütləvi informasiya vasitələri ilə işlərin qurulması və məlumatların düzgün ötürülməsi kimi mövzulara aid təcrübi məşğələlərdə iştirak etmiş və bilik və bacarıqlarını daha da təkmilləşdirmişdir. |
| **13.** | 16-17 may tarixlərində AzQAC-nın prezidenti Novruz Aslanov Qazaxıstanın Alma-Atı şəhərində keçirilən Şərqi Avropa, Baltika, Cənubi Qafqaz və Mərkəzi Asiya Milli QX/QA Cəmiyyətlərinin liderlərinin növbəti Regional Konfransında iştirak etmişdir. | Milli Cəmiyyətin prezidenti AzQAC-ın yerli və beynəlxalq səviyyədə humanitar fəaliyyətləri, dövlət və qeyri-hökumət təşkilatları, beynəlxalq təşkilatlarla əməkdaşlığının təşkil olunması, ölkəmizdə mövcud olan müharibə şəraiti və bunun nəticəsində 1 milyon qaçqın və məcburi köçkünün olması, Aprel hadisələri və s. haqqında geniş məlumat ilə çıxış etmişdir. Eyni zamanda Milli Cəmiyyətin nümayəndələri Beynəlxalq Federasiyasının vitse-prezidenti Françesko Rokka və Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin direktoru Simon Missiri ilə rəsmi görüşlər keçirmişdir. |
| **14.** | 30-31 may tarixlərində AzQAC-ın Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə Belarus Respublikasının Minsk şəhərində Şərq Tərəfdaşlığı ölkələrində Təbii və Texnogen Fəlakətlərin Qarşısının alınması, Hazırlıq və Cavab tədbirləri üzrə Avropa İttifaqı tərəfindən maliyyələşdirilən Proqramı (PPRD East 2) çaçivəsində “Mülki müdafiə sahəsində və təbii fəlakətlər zamanı könüllülərin rolu” mövzusunda keçirilən regional seminarda iştirak etmişdir. | Milli Cəmiyyətin nümayəndəsi ölkəmizdə fövqəladə hallar zamanı könüllülük sisteminin inkişafı, dövlətin bu sahəyə verdiyi diqqət və qayğı, o cümlədən ölkədə mövcud olan normativ hüquqi baza haqqında geniş təqdimat ilə çıxış etmişdir. |
| **15.** | 7-8 iyun tarixlərində AzQAC-ın İcraçı Katibi Ceyhun Mirzəyev İtaliyanın Roma şəhərində təşkil olunan BQXK və BQX/QACF tərəfindən təşkil olunan Qızıl Xaç və Qızıl Aypara Forumuna hazırlıq sessiyasında iştirak etmişdir. | Sessiya zamanı Beynəlxalq Hərəkatı maraqlandırlan əsas humanitar məsələlər və yeni tendensiyalar müəyyənləşdirilmiş, eyni zamanda humanitar problemlərin effektli həlli üçün birgə işləyən yeni innovativ yollar müzakirə edilmişdir. |
| **16.** | 27-30 iyun tarixlərində AzQAC-ın İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran və Fondların artırılması və gəlirgətirmə şöbəsinin əməkdaşı Aygün Əsgərzadə Beynəlxalq Federasiyanın Avropa Zona Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində təşkil olunan Beynəlxalq Federasiyanın IV Fandreyzinq və Kommunikasiya Konfransında iştirak etmişlər. | AzQAC-ın nümayəndələri Milli Cəmiyyətin fondların artırılması və gəlirgətirmə sahəsində həyata keçirdiyi fəaliyyətlər və əldə etdiyi nailiyyətlər barədə məlumat vermiş, öz biliklərini həmkarları ilə bölüşmüşlər. |
| **17.** | 15-22 iyul tarixində AzQAC-ın İcraçı Katibin müavini, Gənclər və Könüllülər şöbəsinin müdiri Xalidə İsgəndərova Qırğızıstanın Bişkek şəhərində Avropa Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətlərinin HİV\QİÇS | Milli Cəmiyyətin nümayəndəsi təqdimatlar, qrup işləri və layihələrin yazılması kimi təcrübi məşğələlərdə iştirak etmiş, öz bilik və bacarığını həmkarları ilə bölüşmüşdür. |

| | | |
|---|---|---|
| | üzrə şəbəkəsinin (ERNA) "Gənclərin Rolu" mövzusunda keçirilən 19-cu görüşündə iştirak etmişdir. | |
| **18.** | 26 iyul tarixində Beynəlxalq Federasiyanın Tərəfdaşlıq və Resursların İnkişafı departamentinin Milli Cəmiyyətlər və hökumətlər ilə əməkdaşlıq üzrə meneceri Finn Jarle Rode və Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin direktor müavini Elxan Rəhimov Azərbaycan QAC-a rəsmi səfər etmişdir. | Səfər çərçivəsində Beynəlxalq Federasiyanın nümayəndə heyəti və Azərbaycan QAC-ın İcraçı Katibi Ceyhun Mirzəyev, İcraçı Katibin müavini Şaban Şayev və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nailə Ömərovadan ibarət olan nümayəndə heyəti ilə Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin nəzdində fəaliyyət göstərən Azərbaycan Beynəlxalq İnkişafa Yardım Agentliyinin məsul şəxsləri arasında rəsmi görüş keçirilmiş və 3 tərəfli birgə mümkün fəaliyyət istiqamətlərinin və əməkdaşlıq imkanlarının genişləndirilməsi müzakirə olunmuşdur. |
| **19.** | 7-9 avqust tarixlərində Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin direktoru Simon Missirinin dəvəti ilə AzQAC-ın prezidenti Novruz Aslanov Macarıstanın Budapeşt şəhərinə işgüzar səfər etmişdir. | Səfər zamanı AzQAC-ın prezidenti Novruz Aslanov Beynəlxalq Federasiyanın Avropa Zona Ofisinin direktoru Simon Missiri, direktor müavini Elxan Rəhimov, Kommunikasiya sahəsində məsul şəxs Nichola Jones, Miqrasiya sahəsində məsul şəxs Christophe Lobry-Boulanger, Fövqəladə Hallara Hazırlıq departamentinin məsul şəxsi Ruben Romero ilə görüşlər keçirmiş və AzQAC ilə Beynəlxalq Federasiya arasında uzun illərdən bəri mövcud olan əməkdaşlıq və tərəfdaşlıq münasibətlərini, bu əməkdaşlıq çərçivəsində görülən birgə işləri və gələcək tərəfdaşlıq perspektivlərini müzakirə etmişdir. |
| **20.** | 13 avqust tarixində AzQAC-ın Baş Qərargahında Milli Cəmiyyətin İcraçı Katibi Ceyhun Mirzəyev, müavini Səbinə Məhbubi-İran, Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə və AzQAC prezidentinin müşaviri Elşən Səlimzadədən ibarət nümayəndə heyəti ilə Banqladeş dövlətinin Təbii Fəlakətlərin İdarəolunması və Yardım Nazirliyinin nümayəndələri arasında rəsmi görüş keçirilmişdir. | Görüş zamanı nümayəndələr ölkə daxilində təbii fəlakətlərin idarə olunmasını, AzQAC-ın dövlət ilə apardığı birgə əməkdaşlıq münasibətlərini və koordinasiya mexanizmini mükazirə etmişlər. |
| **21.** | 14-18 avqust tarixlərində AzQAC-ın prezidenti Novruz Aslanovun başçılıq etdiyi İcraçı Katib Ceyhun Mirzəyev və müavini Səbinə Məhbubi İrandan ibarət nümayəndə heyəti Bakı şəhərində keçirilən 41-ci Ümumdünya Skaut Konfransında iştirak etmişdir. | AzQAC-ın nümayəndə heyəti "Birlikdə Müsbət Dəyişikliyə doğru" şuarı altında təşkil olunan konfransda Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasını təmsil etmişlər. |
| **22.** | 5-9 sentyabr tarixlərində Milli Cəmiyyətin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nailə Ömərova Britaniya QXC tərəfindən təşkil olunan "Fondların Artırılması üzrə Beynəlxalq Təcrübələrin Bölüşdürülməsi" təlimində iştirak etmişdir. | AzQAC-ın nümayəndəsi Milli Cəmiyyətin fondların artırılması və gəlirgətirmə sahəsində həyata keçirdiyi fəaliyyətlər və əldə etdiyi nailiyyətlər barədə məlumat vermişdir. Eyni zamanda Milli Cəmiyyətin nümayəndəsi təcrübi məşğələlərdə iştirak edərək yeni bilik və bacarıqlara yiyələnmişdir. |

| | | |
|---|---|---|
| **23.** | 16-19 sentyabr tarixlərində İran Qızıl Aypara Cəmiyyətinin dəvəti ilə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Prezidenti Novruz Aslanov İran İslam Respublikasının paytaxtı Tehran şəhərinə işgüzar səfər etmişdir. | Səfər zamanı AzQAC-ın prezidenti İran QAC-ın prezidenti və Milli Cəmiyyətin sağlamlıq, gənclər, könüllülər, fövqəladə hallara hazırlıq və cavabvermə sahələrini idarə edən məsul şəxsləri ilə görüşlər keçirmiş və iki Milli Cəmiyyət arasında ikitərəfli münasibətlərin daha da inkişaf etdirilməsi, fövqəladə hallara hazırlıq və cavabvermə, gənclər və könüllülər, səhiyyə kimi sahələrdə birgə əməkdaşlıq fəaliyyətlərinin genişləndirilməsini müzakirə etmişdir. |
| **24.** | 20-24 sentyabr tarixlərində AzQAC-ın İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran Monteneqronun Sutomore şəhərində təşkil olunan İlk Yardım üzrə Təhsilin Avropa Şəbəkəsinin (FAEEN) növbəti illik görüşündə iştirak etmişdir | AzQAC-ın nümayəndəsi il ərzində Milli Cəmiyyət səviyyəsində İlk Yardım üzrə aparılan dəyişiklər, irəliləyişlər, yeniliklər (yeni texnologiyalardan istifadə, üzbəüz və həmyaşıddan həmyaşıda İlk Yardımın öyrədilməsi, mühitin, şəraitin xüsusiliyinin nəzərə alınması, bir sıra hədəf qruplar üçün İlk Yardım proqramların hazırlanması) barədə təqdimat etmişdir. |
| **25.** | 2-10 oktyabr tarixlərində AzQAC prezidentinin müşaviri Elşən Səlimzadə və AzQAC-ın Fövqəladə Hallara Hazırlıq və Cavabvermə şöbəsinin müdiri Fərid Seyidzadə Monteneqronun Sutomore şəhərində təşkil olunan Region üzrə Fövqəladə Hallara Cavabvermə dəstələrinə ixtisasartırma kursunda iştirak etmişlər. | AzQAC-ın nümayəndələri regional səviyyədə qrup məşğələlərdə iştirak edərək fəlakətlərə cavabverilmə və hazırlıqlıolma, ilkin qiymətləndirmənin aparılması, məlumatın idarəedilməsi və istiqamətləndirilməsi, müxtəlif tərəfdaşlarla əməkdaşlığın qurulması, psixososial dəstəyin göstərilməsi və çadırların qurulması kimi sahələrdə yeni bilik və bacarıqlar əldə etmişlər. |
| **26.** | 24-25 oktyabr tarixlərində AzQAC-ın əməkdaşları Nailə Ömərova və Nigar Rüstəmzadə Beynəlxalq Federasiyanın Avropa Zona Ofisi tərəfindən Macarıstanın Budapeşt şəhərində təşkil olunan "Məlumatların Bölüşdürülməsinə dair Təcrübə Mübadiləsi" təlimində iştirak etmişlər. | AzQAC-ın nümayəndələri Milli Cəmiyyətin qeyd olunan sahədəki təcrübəsi barədə məlumat vermiş, eyni zamanda təcrübi məşğələlərdə iştirak edərək yeni bilik və bacarıqlar əldə etmişlər. |
| **27.** | 25 oktyabr tarixində BQX/QACF-nın Cənubi Qafqaz Milli Cəmiyyətləri üzrə yeni təyin olunmuş ölkə klasteri Max Santner Azərbaycana rəsmi səfər etmişdir. | Səfər zamanı Beynəlxalq Federasiyanın nümayəndəsi ilə AzQAC-ın prezidenti Novruz Aslanov arasında görüş keçirilmiş və iki qurum arasında gələcək tərəfdaşlıq münasibətləri və əməkdaşlıq istiqamətlərinin genişləndirilməsi müzakirə edilmişdir. |
| **28.** | 4-5 noyabr tarixlərində Milli Cəmiyyətin Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nailə Ömərova Türkiyənin Antalya şəhərində təşkil olunan Beynəlxalq Federasiyanın Gənclər Forumunda iştirak etmişdir. | Milli Cəmiyyətin nümayəndəsi AzQAC gənclərinin uğurlu fəaliyyəti və Milli Cəmiyyətin yürütdüyü gənclər siyasəti barədə məlumat vermiş, eyni zamanda müxtəlif qrup məşğələlərində iştirak etmişdir. |
| **29.** | 6-11 noyabr tarixlərində Milli Cəmiyyətin prezidenti cənab Novruz Aslanov, İcraçı Katibi Ceyhun Mirzəyev, İdarəetmə Şurasının üzvü Bəylər Talıbov və Beynəlxalq Əlaqələr şöbəsinin müdiri Nailə Ömərovadan ibarət olan | AzQAC-ın nümayəndə heyəti Beynəlxalq Federasiyanın 21-ci Baş Assambleyasının və Hərəkatın Nümayəndələr Şurasının plenar iclaslarında iştirak etmiş, irəli sürülmüş |

| | | |
|---|---|---|
| | nümayəndə heyəti Türkiyənin Antalya şəhərində keçirilən Beynəlxalq QX/QA Hərəkatının Nizamnaməvi Görüşlərində iştirak etmişdir. | qətnamələr barədə çıxışlar etmiş və Beynəlxalq Federasiyanın yeni Prezidenti, vitse-Prezidentləri və İdarəetmə Şurasının üzvlərinin seçkilərinə səsvermədə iştirak etmişlər. Eyni zamanda Milli Cəmiyyətin Prezidenti Novruz Aslanov Beynəlxalq Federasiyanın yeni Prezidenti Francesko Rokka, İcraçı Katibi Elhadj As Sy, Avropa Zona Ofisinin direktoru Simon Missiri və Milli QX/QA Cəmiyytələrinin nümayəndə heyətləri ilə rəsmi görüşlər keçirmiş, qarşılıqlı əməkdaşlıq münasibətlərini müzakirə etmişdir. |
| **30.** | 28 noyabr tarixində AzQAC-ın prezidenti Novruz Aslanovun başçılıq etdiyi İcraçı Katib Ceyhun Mirzəyev və müavini Səbinə Məhbubi-İrandan ibarət olan nümayəndə heyəti ilə BQXK-nın Azərbaycan Nümayəndəliyinin başçısı Elena Ajmone Sessera, Əməkdaşlıq üzrə Proqram rəhbəri Əziz Şah Abdul və BQX/QACF-nın Cənubi Qafqaz Milli Cəmiyyətləri üzrə ölkə klasteri Maks Santner arasında üçtərəfli əməkdaşlıq görüşü keçirilmişdir. | Görüş zamanı tərəflər arasında qarşılıqlı və birgə fəaliyyətlər, gələcək planlar, Davamlılıq Planının inkişaf etdirilməsi, o cümlədən Milli Cəmiyyətin işçilərinin bilik və bacarıqlarının artırılması məqsədilə həm BQXK, həm də Beynəlxalq Federasiya tərəfindən mütəxəssislərin AzQAC-a dəvət olunması kimi məsələlər müzakirə edilmişdir. |
| **31.** | 4-5 dekabr tarixlərində BQXK və BQX/QACF Nizamnamələr üzrə Birgə Komissiyasının üzvü Drina Karahasanoviçin AzQAC-a rəsmi səfəri və AzQAC Nizamnaməsi üzrə Komissiyanın üzvləri ilə görüşü təşkil edilmişdir. | AzQAC-ın Nizamnamə üzrə yaradılmış Komissiyasının üzvləri və BQXK-nın əməkdaşlarının iştirakı ilə AzQAC-ın yeni işlənib hazırlanmış Nizamnaməsinə əlavə və dəyişikliklər müzakirə olunmuşdur. |
| **32.** | 11-14 dekabr tarixlərində AzQAC-ın İcraçı Katibinin müavini Səbinə Məhbubi-İran Belarusiyanın Minsk şəhərində keçirilən Milli QX/QA Cəmiyyətlərinin TB Şəbəkəsinin görüşündə və Şərqi Avropa və Mərkəzi Asiya Milli QX/QA Cəmiyyətlərinin Regional Sağlamlıq üzrə konsultasiyasında iştirak etmişdir. | AzQAC-ın nümayəndəsi Milli Cəmiyyətin qeyd olunan sahədə gördüyü işlər barədə geniş məlumat vermiş, Milli Cəmiyyətin əldə etdiyi yüksək təcrübəni həmkarları ilə bölüşmüşdür. |




## İnformasiya və İctimaiyyətlə əlaqələr

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| **Azərbaycan Qızıl Aypara Cəmiyyətinin fəaliyyətləri haqqında məlumatları KİV və ictimaiyyət arasında daha effektiv yaymaq, digər Milli Cəmiyyətlərlə əməkdaşlığın genişləndirilməsi üçün davamlı olaraq əlaqələr qurmaq.** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Qızıl Xaç və Qızıl Aypara emblemlərindən sui-istifadə hallarının qarşısının alınmasına nəzarət olunmuşdur. | "Şahdağ Qış-Yay Turizm Kompleksi"ndə QX/QA emblemlərindən sui-istifadənin qarşısı alınmışdır. |
| **2.** | AzQAC-a Turizm və Menecment, Xarici Dillər, Qərb və Xəzər universitetlərindən istehsalat təcrübəsi keçmək üçün gəlmiş tələbələrə "Hərəkat və Fundamental prinsiplər" haqqında seminar təşkil edilmişdir. | İl ərzində 50 tələbə Hərəkat və BHH, Fundamental prinsiplər haqqında məlumatlandırılmışdır. |
| **3.** | 16 yanvar tarixində Bərdə rayonunda cəbhəyanı ərazilərdə fəaliyyət göstərən könüllülərə "Operativ kommunikasiya" mövzusunda seminar təşkil edilmişdir. | Təşkil edilmiş seminarda AzQAC-ın 22 nəfər könüllüsü bu sahədə maariflənmişdir. |
| **4.** | 6 mart tarixində "İctimai Radio"-da AzQAC-ın tarixi, həyata keçirdiyi layihələr və fəaliyyət istiqamətləri haqqında məlumat verilmiş, suallar cavablandırılmışdır. | "İctimai Radio"-nun çoxsaylı dinləyiciləri AzQAC-ın tarixi və fəaliyyət istiqamətləri, həyata keçirdiyi layihələr haqqında məlumatlandırılmışdır. |
| **5.** | 13 mart tarixində BQXK-nın Azərbaycan Respublikasının əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi qrupunun əməkdaşları üçün təşkil etdiyi "Beynəlxalq humanitar hüquqa giriş" və "BQXK-nın Azərbaycanda fəaliyyəti" adlı seminarda AzQAC-ın Beynəlxalq | Milli Cəmiyyətin nümayəndələri AzQAC-ın Beynəlxalq Humanitar Hüququn yayımı və BQXK ilə qarşılıqlı əməkdaşlığı çərçivəsində həyata keçirdiyi fəaliyyətlər barədə məlumat vermişlər. |

| | | |
|---|---|---|
| | Əlaqələr şöbəsinin müdiri ilə birgə iştirak edilmişdir. | |
| **6.** | 18-19 aprel tarixlərində “Təhlükəsiz və möhkəm icmaların qurulması” layihəsi çərçivəsində İsmayıllı rayonunda “İcmalarda yayım və liderlik vərdişlərinin aşılanması” mövzusunda keçirilmiş maarifləndirici təlimdə kənd icmalarından olan nümayəndələrə AzQAC-ın tarixi, həyata keçirdiyi layihələr və fəaliyyət istiqamətləri haqqında məlumat verilmişdir. | Seminar nəticəsində 72 nəfər kənd icma nümayəndəsi maariflənmişdir. |
| **7.** | Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə 23-25 oktyabr tarixlərində Bakı şəhərində Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) İnformasiya və İctimaiyyətlə Əlaqələr şöbəsinin Beynəlxalq Humanitar Hüququn (BHH) və Fundamental prinsiplərin yayımı sahəsində seminar keçirilmişdir. Məqsəd AzQAC-ın cəbhəyanı ərazilərə daxil olan rayon bölmələrinin könüllüləri ilə AzQAC-ın Nizami rayon bölməsi və Sumqayıt şəhər bölməsinin könüllüləri arasında təcrübə mübadiləsi aparmaq olmuşdur. | Seminardan AzQAC-ın cəbhəyanı ərazilərə daxil olan rayon bölmələrinin 14 nəfər könüllüsü faydalanmışdır. |
| **8.** | 15-17 noyabr tarixlərində Beynəlxalq Qızıl Xaç Komitəsinin dəstəyi ilə AzQAC-ın Beynəlxalq Humanitar Hüququn (BHH) və Fundamental prinsiplərin yayımı sahəsində növbəti seminarı keçirilmişdir. Seminarda İnformasiya və sosial media siyasəti haqqında məlumatlar verilmişdir. | Seminardan AzQAC-ın 16 nəfər könüllüsü faydalanmışdır. |
| **9.** | 17 noyabr tarixində BQXK-nın təşkilatçılığı ilə jurnailstlərlə görüş təşkil edilmişdir. Görüş zamanı jurnalistləri maraqlandıran suallar cavablandırılmışdır. | Seminar zamanı 19 nəfər jurnalist Hərəkatın yaranma tarixi, AzQAC-ın fəaliyyət istiqamətləri haqqında məlumatlandırılmışdır. |
| **10.** | 6 dekabr tarixində BQXK-nın dəstəyi ilə AzQAC-ın mobil könüllü dəstələrinə Beynəlxalq Humanitar Hüququn (BHH) və Fundamental prinsiplərin yayımı sahəsində təşkil edilmiş seminarda iştirak edilmişdir. | Seminarda 22 nəfər mobil könüllü dəstə üzvü Beynəlxalq Humanitar Hüququn (BHH) və Fundamental prinsiplərin yayımı, AzQAC-ın fəaliyyət istiqamətləri sahəsində məlumatlandırılmışdır. |
| **11.** | 13-14 dekabr tarixlərində Mingəçevir Regional Mərkəzinə daxil olan rayon bölmə sədrlərinə “İnformasiya və kommunikasiya” sahəsində seminar təşkil edilmişdir. | Mingəçevir Regional Mərkəzinə daxil olan 15 nəfər rayon bölmə sədri “İnformasiya və kommunikasiya” sahəsindəki bilik və bacarıqlarını artırmışdır. |
| **12.** | Görülmüş tədbirlər və keçirilmiş layihələr, təşkil edilmiş seminarlar və edilmiş humanitar yardımlar AzQAC-ın rəsmi internet səhifəsində, qəzetlərdə və digər əməkdaşlıq etdiyimiz xəbər portallarının rəsmi internet səhifələrində işıqlandırılmışdır | İl ərzində rəsmi internet səhifəsində 228, qəzetlərdə və xəbər portallarında 316 məqalə dərc edilmişdir. |

## Gənclər və könüllülər

| MƏQSƏD | | |
|---|---|---|
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Gənclər və Könüllüləri İdarəetmə sisteminin inkişaf etdirilməsi və bununla sosial cəhətdən zəif müdafiə olunan və qayğıya ehtiyacı olan əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə könüllü xidmətin səmərəliliyini artırmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Könüllülərin cəlb olunması strategiyasına əsaslanaraq, Respublikada yerləşən tədris müəssisələrində İsmayıllı, Qusar rayonlarında yerləşən kolleclərdə və ali təhsil ocaqlarında könüllülərin cəlb olunması üçün mütəmadi maarifləndirmə işləri aparılmışdır. | RM-də və yerli bölmələrdə könüllü işinə dəstək olunmuş, 480 nəfər AzQAC könüllü üzv olmaq üçün qeydiyyatdan kecmişdir. |
| **2.** | Müxtəlif universitetlərdən AzQAC-ın Baş Qərargahına istehsalat təcrübəsi üçün gələn tələbələrə təlimlər keçirilmiş, tələbələr isə öz növbəsində evlərdə yaşayan ehtiyaclı uşaqlara, qocalara humanitar yardımlar paylamışlar. | 89 nəfər tələbə öz bilik və bacarıqlarını artırmış, uşaqlar və qocalar edilən yardımlardan faydalanmışdır. |
| **3.** | İl ərzində Sərhədyanı bölgələrdən olan könüllülər, tələbələr və Qusar, İsmayıllı rayonlarında icmalarda fəaliyyət göstərən könüllülər ücün modul, lider, sosial və İlk yardım təlimləri keçirilmiş və təlim alan təlimçilər öz növbələrində aldıqları biliklərdən 182 təlimatçı hazırlamış, həmin təlimatçılar isə 320 nəfəri maarifləndirmişdir. | -Könüllülər və kənd sakinləri ehtiyacı olan insanlara xəstəxanalara çatdırılanadək ilk yardımetmə vərdişlərinə yiyələnmişlər. |
| **4.** | 10 mart tarixində qan azlığından əziyyət çəkən uşaqlar və qana ehtiyacı olan xəstələr üçün Azərbaycan Texniki universitetində qanvermə aksiyası keçirilmişdir. | Tədbirdə 500-dən çox müəllim və tələbə iştirak etmiş və qana ehtiyacı olan insanların problemləri müəyyən qədər azalmışdır. |
| **5.** | 19 mart tarixində Miqrasiya şöbəsi ilə birlikdə Novruz bayramı ilə əlaqədar Onkologiya uşaq xəstəxanasında əyləncəli tədbir kecirilmiş, sonda uşaqlara hədiyyələr verilmişdir. | Xəstə uşaqlara qarşı stiqmatizasiya səviyəsinin sayı azalmış və valideynlərin usaqlara sərf edəcəkləri xərclərin bir qismi azalmışdır. |
| **6.** | 12 avqust tarixində "Beynəlxalq gənclər" günü ilə əlaqədar İsmayıllı rayonunda gənclər və yeniyetmələr arasında yay aylarında "Meşədə özünü necə qorumaq" mövzusunda tədbir kecirilmişdir.Tədbirdə etmişdir. | 90 nəfər uşaq və yeniyetmənin iştirak etdiyi tədbirdə uşaqlar həmyaşıdlarına dəstək olaraq meşəyə gedərkən təhlükəli olan yerlərdən və əşyalardan özlərini qoruma biliklərinə yiyələnmişlər. |
| **7.** | 10 oktyabr "Psixi sağlamlıq" günü ilə əlaqədar Sabunçu rayonunun Maştağa qəsəbəsindəki xəstəxanada əyləncəli tədbir kecirilmişdir. Tədbirin sonunda iştirakçılara hədiyyələr təqdim olunmuşdur. | Nəticədə 67 nəfər tədbir iştirakçısının insanlara qarşı stiqmatizasiya dərəcəsi azalmış, həmin insanların cəmiyyətdə fəal iştirakına köməklik edilmişdir. |
| **8.** | "1 iyun Uşaqların Müdafiəsi Günü" ilə əlaqədar Binəqədi rayonunda yaşayan az təminatlı ailələrin uşaqları və Sumqayıt səhərində yerləşən fiziki cəhətdən zəif olan uşaqların internat məktəbində əyləncəli tədbir keçirilmiş, uşaqlara müxtəlif hədiyyələr təqdim olunmuşdur. | Tədbirdə iştirak edən 310 uşağın müvəqqəti də olsa mənəvi qayğıları unudulmuş, onların təhsildə olan dərs ləvazimatları ilə bağlı çətinlikləri qisməndə olsa aradan qaldırılmışdır. |
| **9.** | "15 sentyabr- Bilik Günü" ilə əlaqədar sosial cəhətdən | Tədbirdə 220 nəfər uşaq iştirak etmiş və onlar |

| | | |
|---|---|---|
| | zəif olan ailələrin uşaqları və sərhədyanı rayonlarda (Qazax rayonunun Daşsalahlı kəndi) yaşayan kənd uşaqları üçün yol təhlükəsizliyi ilə bağlı tədbir keçirilmişdir. | dərs ləvazimatları ilə təmin edilmişdir. Uşaqların mövcud təhsil ehtiyacları aradan qaldırılmışdır. |
| **10.** | "15 noyabr – Yol qəzalarında həyatlarını itirmiş insanların anım günü" İsmayıllı rayonunun Təzəkənd orta məktəbində qeyd edilmişdir. Uşaqlara təqdimatlar edilmiş və onları maraqlandıran suallar cavablandırılmış, sonda uşaqlara bukletlər, breloklar təqdim olunmuşdur. | Tədbirdə 320 nəfər müəllim və uşaq iştirak etmiş və hədəf qruplar yollarda təhlükəsiz davranmaq üçün tələb olunan müvafiq bilik və bacarıqlara yiyələnmişlər. |
| **11.** | İl ərzində Gənclər proqramının inkişafına dair Milli Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri və QHT-lərin əməkdaşları ilə gənclər arasında mübadilə proqramının yerinə yetirilməsi davam etdirilmişdir. | Təşkilatlarla sıx əməkdaşlıq etməklə birgə mübadilə proqramları tədricən icra edilmişdir. |
| **12.** | 17 aprel tarixində uşaqlar arasında "Təbiəti qoruyaq" mövzusunda rəsm müsabiqəsi keçirilmişdir. | Müsabiqədə 82 uşaq iştirak etmiş və sonda qaliblər mükafatlandırılmışdır. Nəticədə uşaqlar öz bilik və bacarıqlarını artırmışlar. |
| **13.** | İl ərzində Könüllülər şurasının möhkəmləndirilməsi daxil olmaqla könüllü idarəçilik sisteminiin, elektron qeydiyyatın və könüllülərə dair siyasətin inkişaf etdirilməsi ilə bağlı 2 Milli, 2 Reqional Könüllülər şurasının görüşü kecirilmişdir.. | Görüşdə 28 nəfər könüllü iştirak etmiş və könüllülərlə işləmək, onların maraqlarını dəstəkləmək, bacarıqlarını təkmilləşdirmək, işlərinə dəstək olmaq kimi fəlaiyyətlər həyata keçirilmişdir. |
| **14.** | AzQAC-ın rayon bölmələrində yerləşən təhsil ocaqlarında İlk yardım, hərəkatın tarixi və fəaliyyəti haqqında məlumatların yayılması davam etdirilmişdir. | Gənclər AzQAC faəliyyəti haqqında maarifləndirilmişdir. |
| **15.** | "1 dekabr – "HİV\AİDS – lə Mübarizə Günü" ilə əlaqədar Qusar rayonunda yerləşən litseydə, Memarlıq və İnşaat, Sumqayıt Dövlət universitetlərində maarifləndirici tədbirlər və test analizləri aparılmışdır. | Tədbirdən 800 tələbə yararlanmışdır. Nəticədə gənclərin düşünülmüş addım atmalarına kömək olunmuş, gənclərin müayinəsi zamanı onlara göstərilən xidmətə dair bilikləri artmışdır. |
| **16.** | "5 dekabr-Könüllülər Günü" Sumqayıt şəhərində və İsmayıllı rayonunda qeyd olunmuşdur. | Ümumilikdə tədbirdə 780 nəfər iştirak etmişvə onlardan 250 nəfəri tibbi müayinədən keçmişdir. Gənclərin müayinəsi zamanı onlara göstərilən xidmətə dair bilikləri artmışdır. |
| **17.** | 30 dekabr – "31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü" və "Yeni" il" bayramı münasibətilə qaçqın və aztəminatlı ailələrin uşaqları üçün tədbir keçirilmişdir. | Tədbirdə 50 nəfər uşaq iştirak etmiş və onlara bayram şənlikləri üçün biletlər verilmişdir.Nəticədə uşaqların bayram sevinci artmış və gündəlik qayğılardan uzaqlaşmışlar. |




**Fondların artırılması və gəlir gətirmə**

| MƏQSƏD | | |
|---|---|---|
| ***AzQAC-ın maliyyə bazasının gücləndirilməsi məqsədilə maliyyə mənbələrinin artırılması.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Dekabr ayında BQXK tərəfindən 30 ədəd 20 x 20 ölçüsündə kiçik ianə qutuları, 10 ədəd 80 x 30 ölçüsündə böyük ianə qutuları hazırlanaraq Fondların artırılması və gəlir gətirmə şöbəsinə təhvil verilmişdir. | İanə qutularaının sayı artmış, yerləşdirilməsi və yiğımı üçün geniş imkanlar yaranmışdır. |
| **2.** | 2017-ci il ərzində bir sıra şirkət və müəssisələrə Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə birgə əməkdaşlıq edilməsi üçün müvafiq məktublar göndərilmişdir. | İl ərzində 1500 məktub göndərilmiş və "İDEAL KOMPANİ" MMC, "Veysəloğlu", "Albalı" market, "Jasmin" Aptek, "Chicco" uşaq mağazası, "Go Sport", "The Bagel", "Spar" marketlər şəbəkəsi və s. kimi bir çox şirkət və müəssisələrdən ianə qutularının yerləşdirilməsi ilə bağlı müsbət cavablar alınmışdır. |
| **3.** | İl ərzində hər ay üzrə ianə qutularında yığılan vəsaitlər toplanılmışdır. | İanə qutularından 46.684,66 AzN məbləğində pul vəsaiti toplanılmışdır. |
| **4.** | "Borusan makina Azərbaycan" şirkəti aztəminatlı ailələrin uşaqlarına içərisi məktəb ləvazimatları ilə dolu məktəbli çantası ianə etmişdir. | Az təminatlı ailələrdən olan10 nəfər uşaq bu yardımdan faydalanmışdır. |



## Humanitar yardım

| MƏQSƏD | | |
|---|---|---|
| ***Azərbaycan Qızıl Aypara Cəmiyyətinin imkanlarını və insanlığın gücünü səfərbər edərək,yardıma ehtiyacı olan ahıl,tənha-kimsəsiz ,qaçqın və məcburi köçkün ailələrə ,aztəminatlı və təbii fəlakətlərdən ,texnogen hadisələrdən zərər çəkmiş zavallı insanlara ,miqrantların müəyyən qisminə müxtəlif formada köməklik göstərmək,humanitar dəyərləri rəhbər tutaraq insanlar arasında mərhəmət və xeyirxahlıq hisslərini aşılamaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | 2016 cı ilin humanitar yardım fəaliyyəti ilə bağlı yekun təhlillərin aparılması. | 2017-ci ilin 1rübünün ilk 15 günü ərzində 2016-cı ilin humanitar yardım fəaliyyəti ilə baglı yekun təhlillər aparılmış,nəticə etibarı ilə illik yekun hesabat hazırlanaraq AzQAC-ın İcraçı Katibinə təqdim olunmuşdur. |
| **2.** | AzQAC- ın Regional mərkəzləri və yerli bölmələri ilə işgüzar əlaqələrin inkişafı . | 2017-ci ilin əvvəlindən etibarən Milli Cəmiyyətin RM və YB vasitəsilə humanitar yardım fəaliyyətinə dair əlaqələndirmə işi aparılmış, şöbə tərəfindən hazırlanmış yeni hesabat forması onlara çatdırılmışdır. |
| **3.** | Humanitar yardıma ehtiyacı olan vətəndaşların qəbulu işinin təşkili. | Hesabat ili ərzində hər həftənin çərşənbə günü AzQAC-ın Bakı şəhəri Nərimanov rayon bölməsinin ofisində katiblik tərəfindən vətəndaşların qəbulu zamanı şöbənin iştirakı təmin olunub.Müxtəlif səpkili məsələlərlə bağlı müraciət edənlərin sayı 43 nəfər təşkil edib. |
| **4.** | Müraciət edən tənha və kimsəsiz, aztəminatlı insanların şöbədə və yerli bölmələrdə qeydiyyatının təşkili. | İl ərzində 12 nəfər şöbədə , 39 nəfər isə digər bölmələr üzrə əlavə qeydiyyata götürülərək qeydiyyat siyahılarına əlavə edilmişlər.Şöbə və yerli bölmələr üzrə ümumilikdə 11.000 nəfərə yaxın müvafiq kateqoriyalı insan daimi qeydiyyatdadır.Bunlardan 3.150 nəfəri Bakı şəhəri üzrə yerli bölmələrdə,7.800 nəfəri digər şəhər və rayon bölmələrində, 50 nəfəri isə şöbədə qeydiyyatdadırlar. |

| | | |
|---|---|---|
| **5.** | Ərizə və fərdi müraciətlərə baxılması,onlar əsasında sosial vəziyyətin qiymətləndirilməsi və humanitar yardımın gostərilməsi. | İl ərzində şöbəyə 28 yazılı müraciət daxil olmuş, 59 (fərdi müraciət) ərzaq və s. formada humanitar yardım göstərilməsi ilə bağlı, 643 nəfər güzəştli tibbi mayinə keçməklə bağlı müraciət etmişlər.Ümumi müraciətlərin sayı 730 nəfər təşkil etmişdir.Müraciətlər mümkün imkanlar daxilində müsbət cavablandırılmışdır. |
| **6.** | Tənha və kimsəsiz , xəstə, ahıl  və digər ehtiyaclı insan qruplarının güzəştli və ya təmənnasız tibbi müayinəsinin təşkili. | İl ərzində İran İslam Respublikasının Qızıl Aypara Cəmiyyətinin Azərbaycandakı Klinikası ilə əməkdaşlıq çərçivəsində qeyd olunan kateqoriyaya  aid 643 nəfər tibbi müayinə - göndəriş kartı ilə təmin olunmuş və onların təmənnasız müayinədən keçməsinə şərait yaradılmışdır.Təmənnasız tibbi müayinənin ümumi məbləği 60 AZN güzəştli limit həddi olmaqla 38.580 AZN təşkil etmişdir. |
| **7.** | Miqrantlar və digər əcnəbi vətəndaşlarla iş. | İl ərzində şöbəyə 6 miqrant ailəsi tərəfindən sosial vəziyyətin yaxşılaşdırılması ilə müraciət daxil olmuşdur.Onlardan 5-in tibbi müayinəsi təşkil olunmuş, 1 ailəyə Katibliyin digər əlaqədar şöbələri ilə əməkdaşlıq çərçivəsində müvafiq yardımlar göstərilmişdir. |
| **8.** | Respublikanın müxtəlif təhsil ocaqlarından Azərbaycan Qızıl Aypara Cəmiyyətinə istehsalat təcrübəsinə göndərilmiş tələbələrlə iş. | 36 nəfər tələbəyə Humanitar yardım siyasəti haqqında mühazirələr oxunmuş, onlara metodiki tövsiyyə xarakterli bilgilər verilmişdir. |
| **9.** | 2017-ci ilin əlamətdar günləri ilə əlaqədar Cəmiyyətin missiyasına uyğun humanitar yardım tipli tədbirlərin həyata  keçirilməsi. | Novruz Bayramı, Qurban Bayramı , Ramazan Bayramı və s. münasibətilə bir sıra humanitar yardım xarakterli tədbirlər keçirilmiş, humanitar yardımlar edilmişdir. |
| **10.** | İl ərzində AzQAC-ın şəhər, rayon bölmələri tərəfindən həyata keçirilən tədbirlər nəticəsində göstərilən humanitar yardımların təhlil olunması. | Ümumilikdə 20110 nəfərə 394484 AZN məbləğində müxtəlif növ (ərzaq və qeyri-ərzaq, maddi və s.) humanitar yardımlar edilmişdir. |




**Miqrasiya**

| MƏQSƏD | | |
|---|---|---|
| ***Ölkəyə təşrif buyuran miqrantların, həmçinin, qaçqın və məcburi köçkünlərin normal şəraitdə yaşaması üçün onların bütün yerli və beynəlxalq hüquqlarla təmin olunmasında vəkillik etmək, ölkədə yaşayan miqrantlara daim diqqət və qayğı göstərərək əsas ehtiyaclarını öyrənmək və dəstək olmaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | Yanvar-May və Dekabr ayları ərzində Respublikanın müxtəlif təhsil ocaqlarında AzQAC və Beynəlxalq Miqrasiya Təşkilatının (BMqT) birgə lahiyəsi çərçivəsində "İnsan Alverinə Qarşı Mübarizə" mövzusu üzrə AzQAC-ın Miqrasiya şöbəsi və 84 rayon bölməsinin iştirakı ilə maarifləndirici seminarlar keçirilmişdir. | Ümumilikdə 1100 seminar təşkil olunmuş, nəticədə 44000 şagird və tələbə maarifləndirilmişdir. |
| **2.** | Novruz Bayramı münasibətilə AzQAC-ın Miqrasiya, Gənclər və könüllülər şöbələrinin təşkilatçılığı və Ulduz Şokolad Fabrikinin dəstəyi ilə Milli Onkologiya uşaq xəstəxanasında müalicə alan uşaqlar üçün tədbir keçirilmişdir. | 50 nəfər onkoloji xəstə uşağa bayram hədiyyələri paylanmışdır. |
| **3.** | Oktyabr ayında AzQAC-ın Baş Qərargahında miqrantlar üçün "Azərbaycan dili" kursunun açılışı olmuş, ötən il üçün sertifikatlar verilmiş və çay süfrəsi təşkil edilmişdir. | Tədbirdə 30 nəfər iştirak etmiş və onlara dərs ləvazimatı paylanılmışdır. |
| **4.** | Yanvar-Fevral-Mart aylarında Şirvanşahlar sarayına, İncəsənət muzeyinə, Muğam Mərkəzinə, AzQAC Bakı RM-in Sabunçu rayon bölməsinin tədbirinə, AzQAC-ın 97-ci il dönümüylə bağlı Şəhidlər xiyabanına, Texniki universitetdə Qanvermə aksiyasına səfərlər təşkil edilmişdir.<br>Bir nəfər miqrant qadının rəsm işlərinin sərgisi təşkil edilmişdir. | 40 nəfər miqrant çox aktiv şəkildə bu tədbirlərə qatılmışdır. 11 rəsm əsəri nümayiş etdirilmişdir |
| **5.** | 26 Fevral Xocalı faciəsi və 8 may Şuşanın işğalı günüylə bağlı "Qaçqın, qadın və gənclər mərkəzi"ndə tədbir və ehsan süfrəsi təşkil edilmişdir. | 45 nəfər miqrant iştirak etmişdir. |
| **6.** | Yanvar, mart,iyun,oktyabr, noyabr,dekabrda fərdi dəstəkçilər tərəfindən qurban əti paylanmışdır. | 78 nəfər bu fəaliyyətdən bəhrələnmişdir. |
| **7.** | Yanvar və may ayında Ombudsman Aparatı nəzdində "Uşaq və Gənclər Sülh mərkəzi"nin Liderlik məktəbində "Miqrasiya nədir və miqrantlarla iş"mövzusunda seminar-dərs keçilmişdir. | 65 uşaq və gənc bu tədbirdə iştirak etmiş və bukletlər paylanmışdır. |

| | | |
|---|---|---|
| **8.** | 8 Mart və Novruz bayramı münasibətilə “Qaçqın, qadın və gənclər mərkəzi”ndə tədbir və şirniyyat süfrəsi təşkil edilmişdir. | 48 miqrant iştirak etmişdir. |
| **9.** | İran klinikasında pulsuz müayinə və dərman verilməsi təşkil edilmişdir. | 16 miqrant pulsuz müayinə və dərman ilə təmin edilmişdir. |
| **10.** | Ramazan bayramı münasibətilə fərdi ianəçilər tərəfindən ərzaq bağlaması təşkil edilmişdir. | 20 miqrant ailəsinə bayram hədiyyəsi paylanmışdır. |
| **11.** | Bayramlar ərəfəsində miqrantlara təmənnasız olaraq konsertə, teatra və tədbirlərə biletlər paylanmışdır | 40 bilet paylanmışdır. |
| **12.** | İl ərzində mütəmadi olaraq ehtiyacı olanlara pal-paltar, ev əşyaları, yataq dəstləri və fərdi yardımlar paylanmışdır. | Yardımdan 16 ailə bəhrələnmişdir. |
| **13.** | Ən çox ehtiyacı olan çoxuşaqlı ailələrə AzQAC-ın xüsusi yardım paketi (yorğan, döşək, mətbəx dəsti, gigiyenik paket) verilmişdir. | 18 nəfər olmaqla 2 əfqan ailəsi bu yardımlardan yararlanmışdır. |
| **14.** | Ehtiyacı olanlara ərzaq yardımı edilmişdir. Ad günləri qeyd edilmişdir. | 6 əfqan ailəsinə evində baş çəkilmiş və ərzaq yardımı edilmişdir.<br>2 suriyalı, 6 əfqan uşağa ad günü hədiyyəsi verilmişdir. |
| **15.** | 20. 09.2017-cı ildə Azərbaycan Qızıl Aypara Cəmiyyətinin (AzQAC) Miqrasiya Şöbəsinin müdiri Məmməd Kətanov, Miqrasiya şöbəsinin təhsil üzrə əməkdaşı, miqrantların Azərbaycan dili müəllimi Sona Hacıyeva Birləşmiş Millətlər Təşkilatının Qaçqınlar üzrə Ali Komissarlığının (BMT QAK) Bakı ofisinin Proqram şöbəsinin müdiri, xanım Migena Tane və müavini Nərmin Osmanlının dəvəti ilə BMT QAK-ın Bakı ofisində işgüzar görüşdə olmuşlar. | Görüş zamanı miqrantların qayğı və çətinliklərinin aradan qaldırılması yolları müzakirə edilmişdir. |




**Silahlara qarşı mübarizə**

| | | |
|---|---|---|
| **MƏQSƏD** | | |
| ***2005-ci ildən başlayaraq Azərbaycan Respublikasının qərb bölgəsində yerləşən rayonların, vaxtilə qızğın döyüş meydanı olmuş indi isə soydaşlarımızın məskunlaşdığı ərazilərdə (kəndlərdə, icmalarda) uşaqları mövcud olan mina və müharibənin partlayıcı qalıqları (MPQ) ilə rastlaşma risklərindən qorumaq.*** | | |
| **FƏALİYYƏT** | | **NƏTİCƏ** |
| **1.** | 27 Yanvar tarixində AzQAC və Litva Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində Qazax rayonunun Daş Salahlı kəndinin 1 saylı orta məktəbində “Mina Risklərinin Azaldılması” strategiyasına aid ənənəvi layihəsi olan “Təhlükəsiz Oyun Meydançası” nın rəsmi açılış mərasimi gerçəkləşmişdir. | Açılış mərasimində 500 nəfər məktəbli və kənd əhalisi iştirak etmişdir. |
| **2.** | 11-14 Aprel tarixlərində Beynəlxalq Qızıl Xaç Komitəsinin Silahlara Qarşı Mübarizə proqramı üzrə regional koordinatoru Leyla Susiç tərəfindən Goranboy rayonu Tap Qaraqoyunlu kənd orta məktəbində müəllim və şagirdlərə seminar keçirilmişdir. | Ümumilikdə 300 şagirdin iştirak etdiyi seminarlarda şagirdlər “Silahlara Qarşı Mübarizə Proqramı”nın mahiyyəti üzrə və son vaxtlar Azərbaycan respublikasının Dağlıq Qarabağ və ətraf bölgələrində baş verən hadisələrlə və yaranmış gərginliklə bağlı problemləri nəzərə alaraq, silahlı münaqişə zamanı nə etməli olduqları barədə maariflənmişlər. |
| **3.** | AzQAC və BQXK arasında Silahlara Qarşı Mübarizə proqramı üzrə 2017-ci ildə həyata keçiriləcək fəaliyyətlər istiqamətində Tərtər rayonunda minaya düşüb əlil olmuş ailə başçıları arasında qiymətləndirmə işi aparıldıqdan sonra ailələrə köməklik olunmuşdur. | Qiymətləndirmə nəticəsində 25 mina qurbanına Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən yardım göstərilmişdir. |
| **4.** | İl ərzində AzQAC-ın rayon bölmələri Respublika üzrə mina hadisəsi baş vermiş ərazilərdə mina qurbanları ilə görüşərək | 2017-ci il ərzində 8 mina hadisəsi baş vermişdir. |

| | | |
|---|---|---|
| | onlarla qiymətləndirmə işi aparmış və əldə olunan nəticələri AzQAC-ın Miqrasiya şöbəsinə təqdim etmişlər. | |
| **5** | 11 oktyabr tarixində AzQAC və Litva Respublikasının Azərbaycandakı səfirliyi ilə əməkdaşlıq çərçivəsində Qazax rayonunun Daş Salahlı kəndinin 2 saylı orta məktəbində "Mina Risklərinin Azaldılması" strategiyasına aid ənənəvi layihəsi olan "Təhlükəsiz Oyun Meydançası" nın rəsmi açılış mərasimini gerçəkləşdirmişdir. | Nəticədə həmin gün həm də yeni bir layihənin "Məktəbdən evə, evdən məktəbə təhlükəsiz dönmə" adlanan layihənin açılışı olmuş və Litva Respublikasının Azərbaycandakı səfirliyi tərəfindən Qazax rayonunun Daş Salahlı kəndinin I və II siniflərində oxuyan şagirdlərə 173 ədəd məktəbli çantası ianə edilmişdir. |
| **6.** | 2017-ci ilin aprel ayının 20- də AzQAC-ın Baş Qərargahında Cəmiyyətin Katibliyinin əməkdaşları üçün Beynəlxalq Qızıl Xaç Komitəsinin (BQXK) Silahlara Qarşı Mübarizə Proqramının regional koordinatoru Leyla Susiç tərəfindən seminar keçirildi. Seminarın məqsədi AzQAC Baş Qərargahın əməkdaşlarını Silahlara Qarşı Mübarizə Proqramının mahiyyəti ilə tanış etmək və son vaxtlar Azərbaycan Respublikasının Dağlıq Qarabağ və ətraf bölgələrində baş verən hadisələrlə və yaranmış gərginliklə bağlı problemləri nəzərə alaraq silahlı münaqişə zamanı Cəmiyyətin işçi heyətinin, könüllülərinin və əhalinin nə etməli olduğu haqqında məlumatlar vermək idi. | Nəticədə AzQAC-ın Baş Qərargah işçiləri məlumatlandırıldı. |



**Axtarış Xidməti**

**Məqsəd.**
Bir-birindən ayrı düşmüş ailə üzvlərinin əzab və iztirablarını azaltmaq, psixoloji köməklik ğöstərmək, fövqəladə hallar zamanı və ondan sonra əldə edilən lazimi məlumatları ailə üzvləri arasında mübadilə etmək və həmcinin bir-birinə qovuşdurmaq məqsədi daşıyır.

**Fəaliyyət**
- Mütəmadi olaraq ərizəçilərin qəbulu keçirilir;
- II Dünya müharibəsi zamanı itğin düşənlərin axtarışı;
- Miqrasiya ilə bağlı axtarış;
- Axtarış və sosial problemlərin həlli üçün hüquqi məsləhətlərin verilməsi;
- Sosial problemlərin həlli üçün sənədlərin axtarışı;
- AX-nin fəaliyyəti barədə RM və RB-ri vasitəsilə yayımı;
- Tələbələr üçün seminar – 54 nəfər.

**Dövlət strukturları ilə əməkdaşlıq**
Az.QAC Axtarış Xidmətinin birgə əməkdaşlıq etdiyi əsas dövlət strukturları:

1) Daxili İşlər Nazirliyi.
2) Dövlət Təhlükəsizliyi Nazirliyi.
3) Nazirlər Kabineti nəznində Dövlət Arxiv İdarəsi.
4) Bakı İcra Hakimiyyəti.
5) Respublika Prokurorluğu.
6) Hərbi Komissarlıq.
7) Qaçqınlar üzrə Ali Komissarlıq.

8) Qaçqın və Məcburi köçkünlər üzrə dövlət Komitəsi.
9) Telefon – məlumat xidməti və sair dövlət təşkilatları. (təhsil, kecmiş iş yerləri və s.)

**Görüşlər.**

İl ərzində mütəmadi olaraq BQXK-nin axtarış üzrə nümayəndələri ilə görüşlər keçirilmişdir.
Fövqəladə Hallara hazırlıq, Fövqəladə Hallar zamanı və Fövqəladə Hallardan sonra Axtarış Xidmətinin fəaliyyəti mövzusunda cəbhə xətti və Fövqəladə Hallararın baş verməsi ilə əlaqədər risk altında olan rayon bölmələrinin sədrləri üçün təlim keçirilmişdir.

**Fəaliyyətimiz.**

İl ərzində Slavyan, Qərb, Xəzər, Xarici Dillər və Turizm Universitetlərindən AzQAC-ın Baş Qərargahına təcrübə mübadiləsi keçmək üçün gələn 54 nəfər tələbəyə Axtarış Xidməti üzrə seminar keçirilmişdir.
İl ərzində AzQAC-ın Axtarış xidmətinə müraciət edən 22 nəfər- İraq və Suriya itginlərinin yaxınlarına axtarışla bağlı məsləhətlər verilmişdir.

**Regional Mərkəzlər / rayon bölmələri/.**

İl ərzində Lənkəran, Mingəçevir, Sabirabad, Gəncə Regional Mərkəzlərinin sədrləri ilə dəfələrlə görüşlər keçirilmiş, sorğu blankları mütəmadi olaraq paylanılmışdır. Həmçinin, bir çox rayon bölmələrinin sədrləri ilə axtarış işlərilə bağlı telefon əlaqəsi yaradılmış, məsləhətlər verilmişdir.

**Statistik hesabat**

**2017-cı il ərzində daxil olmuş sorğular:**

**Acılmış işlər: 32**

**Azərbaycan daxili - 19**

| | |
|---|---|
| Miqrasiya ilə bağlı axtarış | 12 |
| Represiya münaqişəsi nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| Miqrasiya ilə bağlı axtarış (sənədlərin axtarışı ) | 2 |
| Sosial axtarış | 4 |
| **Cəmi:** | **19** |

**Ölkə hüdudlarından kənarda - 13**

| | |
|---|---|
| Miqrasiya ilə bağlı axtarış | 7 |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | 5 |
| Represiya münaqişə nəticəsində itirilmiş sənədlərin axtarışı | 1 |
| **Cəmi:** | **13** |

Ailə məktubu - 1

**2017-ci il ərzində bağlanmış işlər - 31**

| | | |
|---|---|---|
| Miqrasiya nəticəsində itgin düşənlərin axtarışı | 3 müsbət | 6 mənfi |
| Miqrasiyaya dair sənədlərin axtarışı | 1 müsbət | 2 mənfi |
| II Dünya müharibəsi zamanı itgin düşənlərin axtarışı | - | 3 mənfi |

| | | |
|---|---|---|
| II Dünya müharibəsinə dair sənədlərin axtarışı | 4 müsbət | 3 mənfi |
| Sosial axtarış | 5 müsbət | 4 mənfi |
| **Cəmi:** | **13** | **18** |

## Maliyyə

Gəlirlərin təhlili göstərir ki, AzQAC üzrə ümumi gəlirlər 2017-ci il üçün 1869155 (Bir million səkkiz yüz altmış doqquz min yüz əlli) manat təşkil edir. Dövlət Büdcəsindən AzQAC-a ayrılan 804978 AzN ümumi gəlirin 43.1 % təşkil edir. 2017-ci ildə həyata keçirilmiş "Təhlükəsiz və Möhkəm İcmaların Qurulması" (Avstriya QXC, Avstriya İnkişaf Agentliyi, Avropa Birliyinin maliyyə dəstəyi) layihəsi davam etdirilmişdir. Bu proqram 120000 AURO (211480 manat) təşkil edərək ümumi gəlirlərin 11.3 %-dir. Hesabat dövründə RM və RB üzrə 820000 manat üzvülük haqqı hesablanmış və 819658 manat üzvülük haqqı yığılmış yəni 43.9% icra olunmuşdur. Cari ildə ilk yardım kurslarından 1600 manat daxil olmuşdur.

2017-ci ildə AzQAC-ın ümumi xərcləri 1868915 (Bir million səkkiz yüz altmış səkkiz min doqquz yüz on beş) manat təşkil etmişdir. Xərclərin 612724 AzN-i əmək haqqı olaraq, o cümlədən 143287 AzN-i DSMF-a, 48967 AzN-i isə gəlir vergisi tutularaq ödənilmişdir. Hesabat dövründə yerli bölmələrin büdcə ilə hesablaşmalarına nəzarət olunmuş, bölmələrin DSMF və yerli vergi orqanları ilə hesablaşmalarının qanunvericiliyə uyğun qaydada aparılması işi müşahidə olunmuşdur.

| **1.** | **Gəlirlər bölməsi** | **manatla** | **faizlə** |
|---|---|---|---|
| | o cümlədən (cəmi) | 1 869 156,00 | 100% |
| 1 | AR Büdcə vəsaiti | 804 978,00 | 43,1% |
| 2 | Üzvlük haqlarından (respublika üzrə) | 819 658,00 | 43,9% |
| 3 | Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | 211 480,00 | 11,3% |
| 4 | İlk yardım təlimlərindən gəlirlər | 1 600,00 | 0,1% |
| 5 | Fundraising və gəlirgətirmə (ianə qutularından daxilolmalar), müəssisə və təşkilatlardan, ayrı-ayrı şəxslərdən, şəxsi ianələrdən olan daxilolmalar | 29 452,00 | 1,6% |
| 6 | Sair gəlirlər | 1 988,00 | 0,1% |

| **2017** |
|---|

| 2. | **Xərclər bölməsi** | **manatla** | **faizlə** |
|---|---|---|---|
| | o cümlədən (cəmi) | 1 868 915,00 | 100% |
| 1 | Əmək haqqı | 612 724,00 | 32,8% |
| 2 | DSMF,Gəlir vergisi və həmkarlar | 192 254,00 | 10,3% |
| 3 | İşçilərin icbari sığortası | 1 700,00 | 0,1% |
| 4 | Təhlükəsiz və Möhkəm İcmaların Qurulması layihəsi (Avstriya QXC-ADA) | 221 480,00 | 11,9% |
| 5 | Təsərrüfat xərcləri, büdcə ilə hesablaşmalar, əmək haqqı xərcləri (respublika üzrə) | 367 665,00 | 19,7% |
| 6 | Sair (bank xidmətləri, təsərrüfat xərcləri, müavinətlər, ezamiyyə xərcləri və inzibati xərclər) | 103 877,00 | 5,6% |
| 7 | AzQAC könüllülərinin il ərzində göstərdikləri xidmətin təqribi dəyəri (respublika üzrə) | 369 215,00 | 19,8% |




